# 28 MAY RESPUBLİKA GÜNÜDÜR


Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 116 (8139) ÇƏRŞƏNBƏ AXŞAMI, 28 may 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az







## Prezident İlham ƏLİYEV: "Əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər"

Bu gün müsəlman Şərqində ilk demokratik və parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 101-ci ili tamam olur. 1918-ci il may ayının 28-də cümhuriyyətin elan edilməsi imperiya əsarətində ağır məşəqqətlərə məruz qalmış xalqımızın milli azadlıq mübarizəsinin qanunauyğun nəticəsi, dərin tarixi kökləri olan milli dövlətçilik ənənələrimizin davamı idi.

Birinci Dünya müharibəsinin sona çatması, Rusiyada Oktyabr inqilabı və çarizmin süqutundan yaranmış gərgin vəziyyət, Rusiyanın keçmiş ərazisinin hamısına lazımi qədər nəzarət edə bilməməsi Azərbaycan Xalq Cümhuriyyətinin yaranması üçün əlverişli şərait yaratmışdı. Xüsusilə qeyd olunmalıdır ki, belə bir şəraitdə müstəqil cümhuriyyəti qura biləcək qabaqcıl ziyalılar təbəqəsinin yetişməsi də Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında müstəsna rol oynamışdır. Müstəqil dövlətçilik ideyasını gerçəkləşdirmək arzusu ilə alışıb yanan, məqalələrində, ictimai və siyasi fəaliyyətlərində bu hisslərini fəxarətlə qeyd edən vətənpərvər insanların yorulmaz səyləri nəticəsində müstəqilliyə aparan yollardakı maneələr dəf edildi. Məhz o insanların müstəqil dövlətçiliyin bərpa olunmasına xidmət edən əqidə və məslək birliyi son nəticədə öz sözünü dedi və 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi.

Qarşısına müstəqil, azad və demokratik respublika qurmaq kimi şərəfli vəzifə qoymuş ilk milli hökumətimiz cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytardı, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi.

Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış tarixi şərait xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan vermədi.

Azərbaycan Xalq Cümhuriyyəti süqut etsə də, onun şüurlara aşılamış olduğu müstəqillik ideyaları bütün məhrumiyyətlərə baxmayaraq, xalqımızın yaddaşından heç vaxt silinmədi. Xüsusən Azərbaycanın dövlətçilik tarixində bu varislik ənənəsini xalqımız cümhuriyyətin süqutundan sonrakı 70 illik sovet hakimiyyəti dövründə qəlbində və şüurunda yaşatmışdır. Xüsusən ümummilli lider Heydər Əliyevin respublikamızda uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

*Ardı 3-cü səh.*

## Prezident İlham ƏLİYEV: "Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik"



*Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə rəsmi qəbul keçirilib.*

*AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər. Rəsmi qəbul Azərbaycan Respublikasının Dövlət himninin səslənməsi ilə başladı.*

*Dövlət başçısı rəsmi qəbulda nitq söylədi.*

## Prezident İlham Əliyevin nitqi

- Hörmətli xanımlar və cənablar.

Mən sizi və bütün Azərbaycan xalqını qarşıdan gələn Respublika Günü münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisə idi. Çünki ilk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdı. Biz haqlı olaraq fəxr edirik ki, məhz Azərbaycan xalqı müsəlman aləmində ilk demokratik respublikanın yaradılmasının müəllifi olmuşdur. Bu, onu göstərir ki, xalqımız çox mütərəqqi xalqdır. Onu göstərir ki, Azərbaycanın görkəmli ziyalıları ölkəmizin inkişafı üçün çox böyük işlər görmüşlər. Xalq Cümhuriyyətinin ömrü uzun olmasa da, 23 ay ərzində çox böyük işlər görə bilmişdir. Dövlət bayrağı, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, milli ordu yaradılmışdır və Qafqaz İslam Ordusu ilə birlikdə Bakını işğalçılardan azad etmişdir. Bakı Dövlət Universiteti yaradılmışdır. Bu, onu göstərir ki, təhsilə çox böyük diqqət yetirilirdi. 200-dən çox qanun qəbul olunmuşdur. Onların arasında qadınlara səsvermə hüququ verən qanun qəbul edilmişdir. Yəni, bütün bu və digər addımlar onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları ölkəmiz, xalqımız üçün çox böyük işlər görmüşlər. Azərbaycan dövləti və xalqı Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsini əziz tutur. Onların xatirəsi bizim qəlbimizdə yaşayır. Bir neçə il bundan əvvəl mənim sərəncamımla Bakı şəhərinin mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Keçən il isə ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdir.

İyirmi üç aydan sonra respublika süqut etdi və bu, bir daha onu göstərir ki, müstəqilliyi saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi. Ondan sonra ilk dəfə olaraq rəsmi qaydada bu bayrağı ulu öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında rəsmi dövlət bayrağı kimi qaldırmışdır və təsis etmişdir. Əslində, müstəqilliyə gedən yol bu tarixi andan başlamışdır.

*Ardı 2-ci səh.*

## Cümhuriyyət irsinə böyük ehtiram



Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxt Bakının İstiqlaliyyət küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə ziyarət edib.

AZƏRTAC xəbər verir ki, abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü. Dövlət başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin ölkəniz sosial-iqtisadi inkişaf yolunda inamla irəliləyir, beynəlxalq gündəlikdəki aktual məsələlərin həllində mühüm rol oynayır.

Rusiyada Azərbaycan ilə strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirirlər. Əminəm ki, biz bütün sahələrdə səmərəli ikitərəfli əlaqələri, regional sabitliyin və təhlükəsizliyin təmin edilməsində konstruktiv qarşılıqlı fəaliyyəti birgə səylərimizlə bundan sonra da uğurla inkişaf etdirəcəyik. Heç şübhəsiz ki, bu, dost xalqlarımızın əsas mənafelərinə uyğundur.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı və uğurlar, Azərbaycanın bütün vətəndaşlarına isə firavanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

## Efiopiya Federativ Demokratik Respublikasının Prezidenti zati-aliləri xanım Sahle-Uork Zevdeyə

Hörmətli xanım Prezident!

Efiopiyanın milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 may 2019-cu il*

# Prezident İlham ƏLİYEV: "Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik"

## Prezident İlham Əliyevin nitqi

Əvvəli 1-ci səh.







Sovet İttifaqı hələ yaşayırdı və belə cəsarətli addım ulu öndərin öz xalqına, öz dövlətinə, xalqının, dövlətinin gələcəyinə nə qədər bağlı olduğunu, nə qədər böyük önəm verdiyini göstərir.

1991-ci ildə Sovet İttifaqının dağılması nəticəsində digər müttəfiq respublikalarla birlikdə Azərbaycan da müstəqilliyə qovuşdu və əlbəttə ki, bizim üçün XX əsrdə ikinci şans yarandı. Ancaq əfsuslar olsun ki, ölkədə gedən xoşagəlməz proseslər imkan vermirdi ki, gənc müstəqil Azərbaycan ayaqda möhkəm dayana bilsin, öz müstəqil siyasətini apara bilsin və xalqın maraqlarını doğrulda bilsin. Çox ağır, faciəvi illər idi. 1992-ci ildə AXC-Müsavat rejimi hakimiyyəti qanunsuz şəkildə zəbt etdikdən sonra vəziyyət daha da ağırlaşdı, pisləşdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz o illərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi alovlanmış və torpaqlarımız işğal altına düşmüşdü. Ölkəmizdə xaos, total böhran hökm sürürdü, iqtisadiyyat iflic vəziyyətdə idi. Əlbəttə ki, Azərbaycan xalqı çıxış yolu axtarırdı. Onu da əlavə edim ki, AXC-Müsavat rejimi ölkədə vətəndaş müharibəsini başlamışdı. Xalqımız nicat yolunu Heydər Əliyevin simasında gördü, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi.

1993-cü il müasir tariximizdə dönüş nöqtəsi idi. Məhz 1993-cü ildən sonra Azərbaycan inkişaf yoluna qədəm qoydu, Azərbaycanda sabitlik təmin edildi və ölkə inamla irəliyə getməyə başladı. Ulu öndər Heydər Əliyevin xalq, dövlət qarşısında misilsiz xidmətləri vardır. Onu da bildirməliyəm ki, 1993-cü ilə qədər müstəqilliyimiz formal xarakter daşıyırdı, ölkəmiz müstəqil siyasət apara bilmirdi. Heydər Əliyevin xalq qarşısında xidmətlərindən biri də o idi ki, Azərbaycan əsl müstəqillik yoluna qədəm qoydu. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə çox ciddi islahatlar aparılmağa başlanmışdır. Nizami ordu yaradılmışdır, ölkəmizə böyük həcmdə xarici sərmayə gəlməyə başlamışdır, dövlətçiliyin əsasları qoyulmuşdur, azərbaycançılıq ideologiyası rəsmi ideologiya kimi qəbul edilmişdir. Bir sözlə, məhz o illərdə Azərbaycanın strateji inkişaf istiqamətləri müəyyən edildi. Bu gün Azərbaycan bu strateji inkişaf istiqamətlərini əsas tutaraq bölgədə, dünyada dəyişən vəziyyətə uyğun olaraq öz inamlı siyasətini aparır. Bu gün ölkəmiz müstəqil siyasət apararaq milli maraqların təmin olunmasında çox böyük addımlar atıb, çox böyük uğurlar qazanıb. 2003-cü ildən bugünə qədər Heydər Əliyev siyasəti Azərbaycanda yaşayır, davam etdirilir, zənginləşdirilir. Əlbəttə ki, o vaxtdan bugünə qədər çox böyük işlər görülüb, ancaq, eyni zamanda, dünya da, bölgə də dəyişib. Dünyada, bölgədə yeni təhlükə mənbələri üzə çıxır, yeni çağırışlar meydana gəlir. Əlbəttə, biz həmişə çalışırıq və çalışmalıyıq ki, ölkəmizi mümkün olan risklərdən qoruya bilək. Son illərin təcrübəsi onu göstərir ki, biz buna müvəffəq ola bilmişik.

Ölkəmizin hərbi qüdrəti güclənir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi, Naxçıvan Muxtar Respublikasında keçirilən əməliyyat nəticəsində böyük torpaq sahəsi işğalçılardan azad edilmişdir. Hərbi qüdrətimizin artırılması nəticəsində bu gün Azərbaycan Ordusu beynəlxalq reytinqlərdə güclü ordular sırasındadır.

Biz son 16 ildə iqtisadi inkişafa nail olduq və bir çox iqtisadi məsələlər öz həllini tapdı. Ölkəmizə böyük həcmdə sərmayə gətirildi. Qoyulan 260 milyard dollardan çox vəsait bu gün ölkəmizin, xalqımızın inkişafına xidmət göstərir. Həm neft, həm qeyri-neft sektoruna qoyulan vəsait ölkəmizin iqtisadi potensialını böyük dərəcədə gücləndirə bilmişdir.

Sosial sahə ilə bağlı çox ciddi addımlar atılır və insanların rifah halı böyük dərəcədə yaxşılaşıb. Məcburi köçkünlərin problemləri öz həllini tapır. Yüzdən çox şəhərcik salınmışdır və bu məsələ ilə bağlı bundan sonra da addımlar atılacaq. Azərbaycanda çox müasir infrastruktur yaradılmışdır və bu sahəyə çox böyük vəsait qoyulmuşdur.

Bir sözlə, son illər ərzində bütün istiqamətlər üzrə inkişaf, tərəqqi var. Sosial infrastrukturun inkişafı ilə bağlı çox böyük işlər görülmüşdür, məktəblər, xəstəxanalar tikilmişdir. Bütün bunlar Azərbaycan reallıqlarıdır. Biz artıq güclü iqtisadi potensial, güclü iqtisadi baza yaratmışıq. Əgər bizim təşəbbüsümüzlə uğurla reallaşan nəqliyyat və enerji layihələrini əlavə etsək, görərik ki, doğrudan da, Azərbaycan böyük yol keçmişdir.

Bu gün biz beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevrilmək üçün çox fəal iş aparırıq. Bu istiqamətdə də böyük addımlar atılır, böyük sərmayə qoyulur. Dəmir yolu infrastrukturu, avtomobil yollarının tikintisi, 6 beynəlxalq aeroportun fəaliyyətə başlaması, dəniz nəqliyyatının müasirləşdirilməsi - bütün bunlar son illər ərzində görülmüş işlərdir.

Görülmüş bütün işləri sadalamaq üçün bir neçə saat vaxt lazım olacaq. Sadəcə olaraq, demək istəyirəm ki, bu gün Azərbaycan müstəqillik yolunda inamla irəliləyir və ölkə qarşısında duran problemlər həll edilir. Ancaq biz gələcəyə baxmalıyıq, əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik. Ölkə qarşısında duran problemlər bizim üçün əsas məsələ olmalıdır və bütün müvafiq tapşırıqlar bu istiqamətdə verilir.

Bundan sonra dayanıqlı inkişafı təmin etmək üçün biz fəal işləməliyik və qəbul olunmuş qərarlar icra edilməlidir. Hesab edirəm ki, bu, qarşıda duran ən vacib məsələlərdən biridir. Çünki bəzi hallarda qərarlar qəbul edilir, sərəncamlar imzalanır, ancaq onların reallaşması yubanır. Ona görə bundan sonrakı dövrdə mütləq bu sahəyə daha ciddi diqqət göstərilməlidir ki, qəbul edilmiş qərarlar, qanunlar, imzalanmış sərəncamlar həyata keçirilsin.

Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib. Belə olan halda hərbi potensialımızın gücləndirilməsi əsas prioritet məsələlərdən biri olmalıdır. Bu istiqamətdə çox ciddi addımlar atılıb. Deyə bilərəm ki, son illərdə hərbi hissələrimizin 80 faizi tamamilə yenidən qurulub. Növbəti illərdə qalan, hələ də təmirə ehtiyacı olan hissələr də təmir ediləcəkdir. Azərbaycan bu gün çox güclü hərbi potensiala malikdir. Ancaq bundan sonra da bu istiqamətdə praktiki addımlar atılacaq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğal altına düşməsi AXC-Müsavat rejiminin acı mirasıdır. Biz çalışırıq bu məsələni həll edək. Həm hüquqi, həm siyasi, həm iqtisadi, həm hərbi nöqteyi-nəzərdən Azərbaycan bu istiqamətdə böyük dərəcədə güclənib. Son illərdə mötəbər beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qərar və qətnamələr bizim ədalətli mövqeyimizi dəstəkləyir və münaqişənin həlli üçün bu, çox güclü hüquqi baza yaradıb. Qondarma "Dağlıq Qarabağ respublikası"nı heç bir ölkə tanımayıb, orada keçirilmiş qanunsuz referendumlara dünyanın aparıcı təşkilatları və bir çox ölkələr tərəfindən sərt, mənfi reaksiya verilmişdir. Biz münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırırıq və bundan sonra da çatdırmalıyıq. Hesab edirəm ki, bu gün vəziyyət tamamilə fərqlidir. Çünki əgər əvvəlki dövrlərdə erməni lobbisi tərəfindən yayılan saxta, təhrif edilmiş məlumatlar daha çox yer tuturdusa, bu gün münaqişə ilə bağlı dünya ictimaiyyəti kifayət qədər məlumatlıdır. Hər kəs xəritəyə baxsa görər ki, Azərbaycan işğala məruz qalan ölkədir.

Bu məsələ ilə bağlı biz bundan sonra da ardıcıl siyasət aparacağıq. Bizim prinsipial mövqeyimiz dəyişməz olaraq qalır. Biz bu mövqedən dönməyəcəyik. Münaqişə yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır və müvafiq beynəlxalq təşkilatların qərar və qətnamələri icra edilməlidir.

Biz bundan sonra da sosial sahəyə çox böyük diqqət göstərəcəyik. Çünki bu sahə hər bir ölkə üçün prioritet olmalıdır, o cümlədən bizim üçün. Baxmayaraq ki, son illər ərzində dəfələrlə maaşlar və pensiyalar artırılıb, biz bundan sonra da bu istiqamətdə addımlar atacağıq. Bu yaxınlarda çox böyük sosial paket qəbul edildi. Bu islahatların anonsu keçənilki prezident seçkilərindən sonra verilmişdir. Bu ilin əvvəlindən çox ciddi sosial təşəbbüs icra edilməyə başlamışdır. Qəbul edilmiş qərarlar üç milyon insanı əhatə edir və bu vətəndaşların maddi vəziyyəti yaxşılaşır.

Ancaq hesab edirəm ki, biz bundan sonra da bu istiqamətdə tam qətiyyətlə addımlar atacağıq. Çünki vətəndaşların sosial rifahı bizim üçün ən prioritet məsələdir. Ancaq təbii ki, bu, iqtisadi inkişafa bağlıdır. Çünki iqtisadi inkişaf, maddi imkanlar olmasa, sosial proqramları həll etmək mümkün olmayacaq. Ona görə iqtisadi sahədə aparılan islahatlara bu gün çox böyük diqqət göstərilir və bu islahatlar artıq nəticə gətirir. Nəticə ondan ibarətdir ki, büdcə daxilolmaları artır. Bu ilin əvvəlindən büdcə daxilolmaları böyük dərəcədə - yüz milyonlarla manat həcmində artmışdır. Bu, bizə əlavə imkanlar yaradır ki, ilk növbədə sosial sahədə bu artım özünü göstərsin.

İşsizliklə bağlı problemlərin həlli daim gündəlikdə duran məsələdir. Çünki 2003-cü ildən bugünə qədər 2 milyon iş yeri yaradılmasına baxmayaraq, yenə də işsizlik var. Düzdür, başqa ölkələrə nisbətən Azərbaycanda işsizliyin səviyyəsi çox aşağıdır, ancaq biz hesab edirik ki, bundan sonra da bu istiqamətdə addımlar atılmalıdır. Bu ilin əvvəlindən təkcə dövlət sektorunda 50 minə yaxın iş yeri yaradılmışdır. Ancaq, əlbəttə, biz yaxşı başa düşürük ki, ilk növbədə özəl sektorda iş yerləri yaradılmalıdır, özəl sektorda da yaradılır. Biz dövlət olaraq özəl sektora dəstək göstərərək onları da bu işə sövq edirik.

İşsizlik hər bir ölkə üçün xas olan problemdir. Bu məsələnin həlli böyük səylər tələb edir. Biz bu səyləri göstəririk və nəticə də əldə olunur. Ancaq onu da bilməliyik ki, son 15 il ərzində Azərbaycan əhalisi 1,7 milyon artmışdır. İşsizliklə bağlı tədbirlər müntəzəm olaraq aparılmalıdır. Bu, gündəlikdə daimi duran məsələdir və biz məsələ ilə bağlı ciddi məşğuluq.

Bu gün dünyada informasiya müharibəsi aparılır və hər bir vətəndaş bunu açıq-aydın görə bilir. Azərbaycan uzun illərdir ki, informasiya müharibəsinin hədəfində dayanan ölkədir. Ölkə haqqında təhrif edilmiş, yalan məlumatlar, uydurma faktlar, saxta xəbərlər geniş vüsət alıb. Biz buna adekvat cavab verməliyik, öz həqiqətlərimizi dünyaya çatdırmalıyıq. Bizə qarşı hücumların əksəriyyətinin arxasında erməni lobbisi və onlarla müttəfiq olan bəzi yerli, özünü müxalifət adlandıran qruplaşmalar durur. Onların hədəfi Azərbaycanı ləkələməkdir, Azərbaycan haqqında təhrif edilmiş yalan məlumatlar yaymaqdır. Bu, informasiya müharibəsinin bir növüdür. Biz öz siyasətimizlə bütün bu yalanları, bütün bu böhtanları darmadağın edirik və etməliyik. Çünki bu gün Azərbaycan reallıqları onu göstərir ki, ölkə inamla, sürətlə inkişaf edir. Mənim Prezident kimi təcrübəmdə bir çox hallarda xarici qonaqlarla təmaslar, Azərbaycana ilk dəfə gəlmiş qonaqlarla görüşlər əsnasında onlar tərəfindən bir təəccüb hissi duyulurdu: yəni, biz bilmirdik ki, Azərbaycan bu qədər inkişaf etmiş ölkədir. Biz bilmirdik ki, Azərbaycanda vəziyyət bu qədər yaxşıdır, şəhərlər bu qədər təmizdir, səliqəlidir, gözəldir. İctimai ovqat müsbətdir. Xalq iqtidarı dəstəkləyir. Yəni, nəyə görə bu təəccüb hissləri oyanırdı? Ona görə ki, bizə qarşı çoxşaxəli, məqsədyönlü və davamlı informasiya müharibəsi aparılırdı. Məqsəd Azərbaycanı ləkələmək, inkişafımıza zərbə vurmaq, cəmiyyətimizin ənənəvi dayaqlarını sarsıtmaqdır. Biz buna heç cür imkan verə bilmərik və imkan vermirik. Çünki biz müstəqillik yolu ilə gedirik. Bizim öz seçimimiz var. Biz güclü dövlət qururuq. O dövlət ki, milli-mənəvi dəyərlər üzərində qurulub. Ona görə hədəflərin biri də məhz bizim milli dəyərlərimizdir, ənənələrimizdir. Çalışırlar ki, onları sarsıdaraq ölkəmizin inkişafına zərbə vursunlar. Azərbaycan xalqı hər şeyi yaxşı bilir və bilməlidir ki, biz informasiya müharibəsi şəraitində yaşayırıq və buna hazır olmalıyıq. Biz bu müharibədə ancaq öz işimizlə, öz qətiyyətimizlə qalib gələ bilərik.

Bizim qarşımızda bir çox vəzifələr dayanır. Ən önəmlisi ondan ibarətdir ki, Azərbaycan öz müstəqil siyasətini aparmalıdır. Xalqımız ancaq müstəqillik şəraitində inkişaf edə bilər. Biz əsrlərboyu müstəqillikdən məhrum idik və öz seçimimizi edə bilmirdik. Bu gün biz xoşbəxtik ki, müstəqil ölkə kimi, azad xalq kimi yaşayırıq, taleyimiz öz əlimizdədir. Müstəqilliyimizin qorunması, möhkəmlənməsi ən vacib məsələlərdən biridir. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir və onların niyyətlərini biz həyatda təmin etdik, həyata keçirdik. Əminəm ki, müstəqillik yolunda bizim inkişafımız davamlı olacaq, uğurlu olacaq və Azərbaycanın dövlət müstəqilliyi əbədi olacaq! Sağ olun.

* * *

Rəsmi qəbul Azərbaycan incəsənət ustalarının konsert proqramı ilə davam etdi.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına həm öz adımdan, həm də həmvətənlərim adından ən xoş arzularımı bildirirəm.

Azərbaycan və Almaniya 27 illik dinamik və etibarlı diplomatik əlaqələrə malikdirlər. Bu il biz Bakıdakı Alman Dili Tədris Mərkəzinin 10 illik yubileyini qeyd edirik. Mən çox şadam ki, alman dilinin tədrisinə və alman mədəniyyətinə Azərbaycanda belə yüksək münasibət bəslənilir. 2018-ci ildə açılmış Höte Mərkəzi mədəniyyət sahəsində əməkdaşlığımızı daha da gücləndirdi. Almaniya, həmçinin siyasi dialoqu da davam etdirməyə daim hazırdır.

Mən Sizə xoş diləklərimi çatdırır və Azərbaycan xalqına sülh, əmin-amanlıq və rifah arzulayıram.

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizə və həmvətənlərinizə səmimi təbriklərimi çatdırmaq mənim üçün yaranmış xoş fürsətdir. Ulu Tanrıdan diləyim odur ki, həmrəylik və ədalət naminə apardığımız ümumi işlərimizdə qoy bizə dəstək olsun, ölkənizin vətəndaşları ailə səadətinə və sosial rifaha qovuşsun, gəncləriniz gələcəyə ümidlə yaşasınlar.

Zati-alinizə, hökumətinizin üzvlərinə, o cümlədən bütün Azərbaycan xalqına Ulu Tanrının xeyir-duasını diləyirəm.

*Hörmətlə,*

***FRANSİSK,***
***Roma Papası***

---

Cənab Prezident!

Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə Sizi İspaniya Hökuməti və xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Zati-aliləri, Sizə xoşbəxtlik və uğurlar, əziz Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm.

*Dərin hörmət və ehtiramla,*

***VI FELİPE,***
***İspaniyanın Kralı***

---

Hörmətli cənab Prezident!

İcazə verin, Respublika Günü münasibətilə Sizə və xalqınıza səmimi-qəlbdən təbriklərimi və ən xoş arzularımı bildirim.

Böyük məmnunluq hissi ilə qeyd etmək istərdim ki, son illərdə ölkələrimiz arasında əməkdaşlıq dinamik inkişaf edir. Azərbaycan bizim üçün mühüm tərəfdaşdır və biz Sizin ölkə ilə ümumi tarixi və mədəni əlaqələri bölüşürük.

Macarıstanın ölkələrimiz arasındakı münasibətlərin daha da möhkəmləndirilməsinə və qarşılıqlı faydalı əməkdaşlığımızın genişləndirilməsinə sadiq qaldığını bir daha təsdiq edirəm.

Sizə ali dövləti fəaliyyətinizdə böyük uğurlar və cansağlığı arzulayır, Azərbaycan xalqına isə sülh və firavanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***Yanoş ADER,***
***Macarıstanın Prezidenti***

---

Hörmətli İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə səmimi təbriklərimi qəbul edin.

Azərbaycan Respublikası sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafın dayanıqlı templərini nümayiş etdirir, bu da şübhəsiz ki, ölkənin dünya arenasında nüfuzunun möhkəmlənməsinə təsir edir.

Əminəm ki, Ukrayna və Azərbaycan arasında mövcud əməkdaşlıq gələcəkdə də strateji tərəfdaşlıq ruhunda və dövlətlərimizin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı surətdə dəstəklənməsi əsasında inkişaf edəcək.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

***Vladimir ZELENSKİ,***
***Ukrayna Prezidenti***

---

Zati-aliləri!

İcazə verin, ölkənizin milli bayramı - Respublika Günü münasibətilə Sizə öz təbriklərimi və Azərbaycan xalqının rifahı üçün ən xoş arzularımı çatdırım.

*Hörmətlə,*

***Villem-ALEKSANDR,***
***Niderlandın Kralı***

---

Hörmətli cənab Prezident!

İcazə verin, milli bayramınız - Respublika Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən xoş təbriklərimi çatdırım. Ölkənizə və xalqınıza səmimi-qəlbdən davamlı rifah, inkişaf və müvəffəqiyyətlər arzulayıram.

Ümidvaram ki, Azərbaycan ilə Litva arasında həm ikitərəfli səviyyədə, həm də Avropa İttifaqı çərçivəsində mövcud olan dialoq genişlənəcək, həmçinin hərtərəfli əməkdaşlığın yaratdığı imkanlar xalqlarımız arasında biznes, ticarət, elm, təhsil, innovasiya, mədəniyyət və turizm sahələrində qarşılıqlı fəaliyyətin daha da inkişafına, dövlətlərimizin əməkdaşlığının möhkənlənməsinə kömək edəcək.

İcazə verin, Sizi milli bayramınız münasibətilə bir daha təbrik edim.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Dalya QRİBAUSKAYTE,***
***Litva Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Milli bayramınız - Respublika Günü münasibətilə Sizə ən xoş arzularımı və səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Banqladeş ilə Azərbaycan arasında dostluq münasibətləri mövcuddur. Əminəm ki, münasibətlərimiz xalqlarımızın istəklərinə uyğun olaraq bundan sonra da inkişaf edəcəkdir.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və uzun ömür, dost Azərbaycan xalqına isə davamlı sülh, tərəqqi və rifah diləyirəm.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Dərin hörmətlə,*

***Md. Əbdül HƏMİD,***
***Banqladeş Xalq Respublikasının Prezidenti***

---

Möhtərəm İlham Heydər oğlu!

Milli bayramınız - Respublika Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan iqtisadi, sosial, elmi-texniki və digər sahələrdə yeni nailiyyətlərə əsaslanaraq inamla irəliləyir, sabitliyi möhkəmlədir, xalqın rifahını yüksəldir. Respublikanın beynəlxalq və regional arenalarda nüfuzu durmadan artır.

Şanxay Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərlə “Odlar Yurdu” arasında çoxəsrlik tarixi əlaqələr, dövlətinizin zəngin mədəni irsi, coğrafi mövqeyi və böyük nəqliyyat-tranzit potensialı onu Şanxay Əməkdaşlıq Təşkilatının təbii tərəfdaşına çevirir.

Əminəm ki, bizim təşkilatın fəaliyyətində Bakının fəal iştirakı sülhü və təhlükəsizliyi möhkəmlətməyə, müasir çağırışlara və təhdidlərə qarşı mübarizəni dərinləşdirməyə, qarşılıqlı iqtisadi və humanitar əlaqələri genişləndirməyə imkan verəcək.

İcazə verin, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni uğurlar, dost Azərbaycanın bütün vətəndaşlarına isə firavanlıq və tərəqqi arzularımı bildirim.

*Dərin hörmətlə,*

***Vladimir NOROV,***
***Şanxay Əməkdaşlıq Təşkilatının Baş katibi***

---

Hörmətli cənab Prezident!

Sizi Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə təbrik edirəm. İcazə verin, Sizə ölkənizin və xalqınızın rifahı və firavanlığı üçün ən xoş arzularımı çatdırım.

Zati-alinizin səyahət və turizm sahəsinə şəxsi dəstəyi ölkənizin turizmə davamlı sosial-iqtisadi inkişaf vasitəsi və Azərbaycanın dünya turizmində güclü bir brend kimi formalaşmasına verdiyi önəmi xüsusi vurğulayıram.

Dünya Turizm Təşkilatının Sizin fəaliyyətinizə daimi dəstəyinə əmin ola bilərsiniz. İnanıram ki, gələcək illərdə Azərbaycan və Dünya Turizm Təşkilatı arasında mövcud olan mükəmməl əlaqələr daha da inkişaf edəcək və genişlənəcək. İyunun 16-18-də Bakıda keçiriləcək Dünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyasında iştirakınızla bizə şərəf verməyinizi səbirsizliklə gözləyirəm.

Cənab Prezident, Sizi bir daha təbrik edirəm. Zati-alinizə ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Zurab POLOLİKAŞVİLİ,***
***Dünya Turizm Təşkilatının Baş katibi***

---

Möhtərəm cənab Prezident!

Sizi ölkəmizin milli bayramı - Respublika Günü münasibətilə ürəkdən təbrik edir, işlərinizdə böyük uğurlar, möhkəm cansağlığı arzulayıram.

Xalq Cümhuriyyətinin varisi olan Azərbaycanın tarixində 1993-cü ildən yeni dövr başlandı. Azərbaycan parçalanma təhlükəsi ilə qarşılaşan zaman xalqımız Heydər Əliyevi yeganə xilaskar görərək ona müraciət etdi. Ulu öndər Heydər Əliyevin Bakıya qayıtması, Azərbaycana rəhbərlik etməsi ölkəni xilas etdi, insanların həyatına inam gətirdi. Böyük layihələr həyata keçirildi, “Əsrin kontraktı” imzalandı və Azərbaycan dünyanın siyasi xəritəsində özünə layiq yer tutdu.

Sizin rəhbərliyinizlə ölkəmiz bu gün uğurla inkişaf edir. Müəllifi olduğunuz, qlobal əhəmiyyət daşıyan “Cənub qaz dəhlizi” layihəsi həyata keçirildi, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin qarantı oldu. Bu gün Azərbaycanda enerji sektoru ilə bərabər qeyri-neft və qaz sahələri də inkişaf edir. Ölkəmiz kosmik dövlətlər sırasına daxil olaraq böyük qələbələr qazanıb.

Möhtərəm cənab Prezident, Sizin, xalqa arxalanaraq, Azərbaycanın ərazi bütövlüyü uğrunda apardığınız vacib siyasətiniz ölkəmizin hər bir vətəndaşı tərəfindən dəstəklənir. Bu istiqamətdə apardığınız fəaliyyətdə Sizə böyük uğurlar və cansağlığı arzulayıram.

Əminəm ki, həyata keçirdiyiniz siyasət ölkəmizə daha böyük uğurlar və qələbələr gətirəcəkdir.

*Dərin hörmətlə,*

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının***
***Parlament Məclisinin Baş Katibi***

---

Möhtərəm cənab Prezident!

Respublika Günü - Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 101-ci ildönümü münasibətilə ən xoş arzularımı və səmimi təbriklərimi qəbul edin.

Yüz bir il bundan əvvəl yaradılmış Azərbaycan dövləti müasir Azərbaycanın bütün dünyada demokratik respublika kimi tanınmasında mühüm rol oynayıb. Danılmaz tarixi faktdır ki, Azərbaycan ən ali demokratik dəyərləri hələ bir əsr əvvəl nəinki bəyan etmiş, həm də öz əməli fəaliyyətində onları təmin etmiş ölkələrdən biridir.

Azərbaycan Xalq Cümhuriyyəti ilk parlament respublikası kimi bütün Yaxın Şərqdə, o cümlədən türk-müsəlman dünyasında hüququn aliliyinə əsaslanan ilk demokratik dünyəvi dövlət modeli olub. Bugünkü müstəqil Azərbaycan məhz Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisidir.

Bu gün dünyada həm millətlərarası, həm də dinlərarası münaqişələrin alovlandığı bir vaxtda Azərbaycan bütün konfessiyaların nümayəndələrinin dinc yanaşı yaşadığı sabitlik, firavanlıq və tolerantlıq adasıdır. Hətta ölkə ərazisinin 20 faizinin təcavüzkar Ermənistan dövləti tərəfindən işğal edilməsi də Azərbaycanın və onun xeyirxah xalqının əsl sivilizasiyalararası dialoq nümunəsi kimi, bütün xalqların və konfessiyaların nümayəndələrinin dinc yanaşı yaşadığı məkan kimi qalmasına mane olmayıb.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, İsrail Dövləti Azərbaycanın və şəxsən Sizin Azərbaycanda yaşayan bütün icmalara, o cümlədən yəhudi icmasına dünyada analoqu olmayan diqqətli və səmimi münasibətinizi yüksək qiymətləndirir. Siz dünyəvi dövlətə, multikulturalizmə və tolerantlığa sədaqətinizə, Azərbaycanda yaşayan bütün konfessiyalara və xalqlara xoş münasibətinizə görə həm İsrail cəmiyyətinin, həm də başqa dövlətlərdəki yəhudi icmalarının böyük hörmətini qazanmısınız.

Hörmətli cənab Prezident, Sizə və Sizin gözəl ailənizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, ali dövləti fəaliyyətinizdə böyük uğurlar, qardaş Azərbaycan xalqına isə sülh və tərəqqi arzu edirəm.

*Dərin hörmətlə,*

***Arye QUT,***
***Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsrail Dövlətindəki nümayəndəliyinin direktoru,***
***“Cəmiyyət üçün beynəlxalq layihələr” qeyri-hökumət təşkilatının rəhbəri***

## ABŞ-ın Dövlət katibi Mayk Pompeonun 28 May - Respublika Günü münasibətilə təbriki

Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Mayk Pompeo Azərbaycan xalqını 28 May - Respublika Günü münasibətilə təbrik edib. Təbrikdə deyilir:

“Respublika Günü münasibətilə Amerika Birləşmiş Ştatlarının Hökuməti adından Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram.

Amerika Birləşmiş Ştatları Azərbaycanı özünə etibarlı dost və tərəfdaş hesab edir. Qarşılıqlı ticarətin artırılması, demokratik və iqtisadi inkişafın daha da gücləndirilməsi, eləcə də xalqlarımız arasında əlaqələrin möhkəmləndirilməsi naminə əməkdaşlığımızın qarşıdakı ildə genişlənəcəyinə ümidvarıq. Biz Azərbaycanın beynəlxalq təhlükəsizliyə verdiyi mühüm töhfələri və “Cənub qaz dəhlizi” kimi enerji şaxələndirilməsi layihələrindəki liderliyini alqışlayırıq.

ATƏT-in Minsk qrupunun həmsədri kimi tərəflərə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və dayanıqlı həlli yollarının tapılmasına kömək göstərməyə sadiq qaldığımızı bildiririk. Biz son zamanlar münaqişənin danışıqlar yolu ilə həlli istiqamətində tərəflərin yüksəksəviyyəli iştirakını, həmçinin məhsuldar müzakirələr üçün əlverişli mühitin yaradılması və xalqların sülhə hazırlanması sahəsində göstərilən səyləri təqdir edirik”.

## Azərbaycan-Gürcüstan dövlət sərhədində mövcud əməliyyat şəraiti müzakirə olunub

Mayın 27-də Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi, general-polkovnik Elçin Quliyev və Gürcüstan Daxili İşlər Nazirliyinin Sərhəd Polisinin rəisi Teymuraz Kekelidzenin başçılıq etdiyi nümayəndə heyətlərinin dövlət sərhədində işçi görüşü keçirilib.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Gürcüstan dövlət sərhədində mövcud əməliyyat şəraiti, sərhəd rejiminin təmin edilməsi, məlumat mübadiləsinin həyata keçirilməsi, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

UEFA Avropa Liqasının mayın 29-da Bakıda keçiriləcək final oyununa tamaşa etmək üçün hava, dəmir yolu və avtomobil nəqliyyatı ilə Gürcüstandan ölkəmizə gələcək azarkeşlərin dövlət sərhədindən buraxılış məntəqələrindən sadələşdirilmiş qaydada keçmələri, bu kateqoriyadan olan şəxslər və onların nəqliyyat vasitələri üçün xüsusi keçid şəraitinin yaradılması üzrə məsələlər nəzərdən keçirilib və razılaşdırılıb.

Görüşdə sərhəd təhlükəsizliyinin təminatı üçün Azərbaycan və Gürcüstan sərhəd mühafizə orqanları arasında qarşılıqlı əlaqələrin daha da genişləndirilməsinin vacibliyi qeyd edilib.

Görüş dostluq və qarşılıqlı anlaşma şəraitində keçib.

## Vətəndaşların qəbulu

Mayın 25-də vergilər naziri Mikayıl Cabbarov Göyçay şəhərində 9 saylı Ərazi Vergilər İdarəsinin inzibati binasında vətəndaşları qəbul edib.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən bildirilib ki, qəbulda Göyçay, Kürdəmir, Ağdaş, Ucar, Zərdab, Yevlax, Bərdə, Tərtər, Ağdam, Şəki rayonları və Mingəçevir şəhər sakinləri iştirak ediblər.

Qəbulda vətəndaşların əsasən, yaranmış vergi borcları, vergi orqanlarında işlə təminat, vergi uçotunun aparılması və e-qaimələrin tətbiqi, kənd təsərrüfatı məhsullarının ixracı və vergi inzibatçılığı sahəsində qarşılaşdıqları məsələlərlə əlaqədar müraciətlərinə baxılıb.

Vətəndaşların müraciətləri dinlənilib və nazirliyin struktur bölmələrinə aidiyyəti tapşırıqlar verilib.

* * *

Mayın 27-də energetika nazirinin müavini Samir Vəliyev Masallı və Yardımlı, nazir müavini Elnur Soltanov isə Lerik rayonundan olan vətəndaşları qəbul ediblər.

Nazirliyin aidiyyəti struktur bölmələrinin nümayəndələrinin iştirakı ilə keçirilmiş qəbullarda vətəndaşlar diqqətlə dinlənilib, müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Vətəndaşların müraciətləri qazlaşma, qaz sayğaclarının quraşdırılması, elektrik enerjisinə görə yaranan borcun silinməsi, elektrik enerjisi təchizatında fasilələr, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti, işlə təminat və digər məsələlərlə bağlı olub. Ümumilikdə qəbullarda 20-dək vətəndaş müraciət edib.

***AZƏRTAC***

# Tarixin ən qüdrətli Azərbaycanı

***Əvvəli 1-ci səh.***

Bu dövrdə xalqımızın sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində baş verən yüksəliş, sürətli inkişaf milli dövlətçilik ideallarının bərpası və gələcək müstəqillik baxımından əhəmiyyəti misilsiz idi. Elə üçrəngli bayrağımızın da Heydər Əliyevin təşəbbüsü ilə hələ sovet hakimiyyətinin mövcud olduğu 1990-cı ilin noyabrında Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərarın qəbul edilməsi ulu öndərin müstəqillik ideallarına nə qədər bağlı olduğunu göstərdi.

Oktyabrın 18-də dövlət müstəqilliyinin elan olunması Azərbaycanın yeni intibahının bünövrəsi demək idi. Xalqımız cümhuriyyətin dövlətçilik ənənələrini davam etdirərək bu tarixi varislik üzərində öz dövlətini yaratdı. O dövrü şərh edən ulu öndər Heydər Əliyev demişdir: *“Əsrin sonunda öz müstəqilliyini bərpa edən Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi olaraq Üzeyir Hacıbəyovun və Əhməd Cavadın yaratdıqları Dövlət himnini, xalq cümhuriyyətinin üçrəngli bayrağını və gerbini bərpa elədi. Bu dövlətçilik atributları bu gün də hər bir Azərbaycan vətəndaşı üçün olduqca əzizdir... Bu dövlət, bu quruluş 1918-ci ildə yaranmış ilk xalq cümhuriyyətinin varisidir”.*

Fəqət, müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələrin səbatsızlığı, səriştəsizliyi az qala bu müstəqilliyin də əldən getməsinə gətirib çıxaracaqdı. Yalnız ulu öndərin sayəsində belə bir vəziyyətdə müstəqilliyimizi qorumaq mümkün oldu. Heydər Əliyev bütün təhlükələri dəf etməklə Azərbaycanın müstəqilliyinin möhkəm təməlini qoydu, xalqımızın azadlıq intibahının banisi oldu.

Heydər Əliyev xalqımıza əbədi müstəqillik bəxş etdi. Prezident İlham Əliyev isə öz uğurlu siyasəti ilə müstəqilliyimizi daha da möhkəmləndirir, sarsılmaz edir. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycan heç vaxt indiki kimi qüdrətli olmamışdır. Azərbaycanın regionun lider dövlətinə çevrilməsi, dünya birliyində söz sahibi kimi qəbul olunması məhz müstəqilliyimizin və müstəqil siyasətin bəhrəsidir.

Azərbaycanın bu gün əldə etdiyi möhtəşəm uğurların fonunda müstəqilliyimizin möhkəm olması daha aydın görünür. Bu qüdrətin göstəriciləri Azərbaycanın kosmik klubun üzvünə çevrilməsi, BMT Təhlükəsizlik Şurasına sədrlik etməsi, beynəlxalq enerji təhlükəsizliyi və digər qlobal məsələlərdə öz sözünü deməsi və s. bu kimi digər məsələlərdir. Bütün bunlar həm də Azərbaycanın inamla addımladığı yoldan xəbər verir. Bu yol müstəqil Azərbaycan dövlətinin daha da qüdrətlənməsinə, xalqımızın daha güclü rifahına aparır.

Prezident İlham Əliyevin ötən 16 illik fəaliyyətində diqqətçəkən məqamlardan biri dövlətçilik tariximizin öyrənilməsi, araşdırılması və gələcək nəsillərə çatdırılmasıdır. Bu sırada Azərbaycan Xalq Cümhuriyyəti ilə bağlı görülən işlər xüsusi qeyd edilməlidir. “Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası”nın dövlət qayğısı ilə yüksək səviyyədə nəşri bunun parlaq təzahürüdür. Hər il 28 May - Respublika Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin adından rəsmi qəbullar təşkil olunur, bu əlamətdar günlə bağlı dövlətimizin başçısı xalqı təbrik edir. Bakıda cümhuriyyətin şərəfinə ucaldılan abidənin açılması Azərbaycan hakimiyyətinin dövlətçilik tariximizə verdiyi qiymət kimi olduqca diqqətəlayiqdir. İstiqlaliyyət küçəsində ucaldılan bu abidə adları Azərbaycan dövlətçiliyi ilə birgə tarixə düşən istiqlal mücadiləsi iştirakçılarının xatirəsinə ən böyük ehtiramdır.

Prezident İlham Əliyevin 2017-ci il may ayının 16-da imzaladığı “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında” sərəncama əsasən xalq cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edildi. Nazirlər Kabinetinin 2018-ci il yanvarın 10-da keçirilən iclasında Prezident İlham Əliyev 2018-ci ili ölkəmizdə “Azərbaycan Xalq Cümhuriyyəti ili” elan etdi və müvafiq sərəncam imzaladı. Hər kəs bu sərəncamı ölkə rəhbərinin milli dövlətçilik tariximizə olan xüsusi diqqəti və ehtiramı kimi dəyərləndirdi və təşəkkürünü ifadə etdi.

Müstəqil siyasət yeridən Azərbaycan artıq regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan ölkə və strateji tərəfdaş kimi tanınır. İlham Əliyevin dövlətimizin milli maraqlarını bütün sahələrdə inamla təmin etməsi Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsinə, əbədi və sarsılmaz dövlətçiliyimizin daha da qüdrətlənməsinə xidmət edir. Müstəqilliyimiz isə əbədidir. Bu azadlığı və hürriyyəti heç bir qüvvə xalqımızdan ala bilməz.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Dövlətə məxsus olan hüquqi şəxslərdə Apelyasiya şuralarının yaradılmasına dair müşavirə keçirilib



Azərbaycan Respublikasının Prezident İlham Əliyevin 2019-cu il 6 may tarixli fərmanı ilə dövlətə məxsus olan hüquqi şəxslərdə Apelyasiya şuralarının yaradılmasına dair mayın 27-də Bakı Biznes Mərkəzində müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, müşavirədə dövlətə məxsus olan hüquqi şəxslərdə yaradılmış Apelyasiya şuralarının sədrləri və katibləri iştirak ediblər.

Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasının sədri, Prezident Administrasiyasının dövlət nəzarəti şöbəsinin müdiri Eldar Nuriyev tədbirdə çıxış edərək bildirib ki, bu il mayın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılmasında şəffaflığın, obyektivliyin və operativliyin təmin edilməsi, bu sahədə çalışan şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədilə dövlətə məxsus olan hüquqi şəxslərdə Apelyasiya şuralarının yaradılması ilə bağlı fərman imzalayıb. Fərmana əsasən, “Dövlətə məxsus olan hüquqi şəxsin Apelyasiya Şurası haqqında Nümunəvi Əsasnamə” təsdiqlənib.

Eldar Nuriyev qeyd edib ki, fərmana əsasən, dövlətə məxsus hüquqi şəxslərdə Apelyasiya şuraları yaradılıb. Bu hüquqi şəxslərin dairəsi kifayət qədər genişdir. Buraya həm dövlətin yaratdığı şirkətlər, səhmdar cəmiyyətləri, kommersiya və qeyri-kommersiya hüquqi şəxsləri, o cümlədən publik hüquqi şəxslər daxildir. Bu qurumlarda Apelyasiya şuralarının yaradılması dövlət başçısının sahibkarlara, sahibkarlıq fəaliyyətinə göstərdiyi diqqətin təzahürüdür. Bu, eyni zamanda, onların hüquqlarının qorunması, qanuni mənafelərinin müdafiə olunması üçün əlavə təminatdır. Apelyasiya şuralarının yaradılması Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən islahatların tərkib hissəsidir. Apelyasiya şuraları yeni iqtisadi şəraitdə dövlət siyasətinə uyğun olaraq çox vacib funksiyaları, sahibkarlığa dövlət dəstəyinin göstərilməsini həyata keçirən qurumlardır.

Şuraların yaradılmasında məqsədin iş adamlarının müraciətlərinə operativ reaksiya verməkdən, onların şikayətlərini tam, hərtərəfli, obyektiv araşdırmaqdan, ədalətli və qanuni qərarlar çıxarmaqdan ibarət olduğunu deyən Eldar Nuriyev bildirib ki, dövlət başçısının tapşırıqlarının yerinə yetirilməsi üçün təşkilati-texniki tədbirlərin icrasına başlanılıb, işlərin sistemli, ardıcıl aparılması üçün zəruri addımlar atılıb, tədbirlər planı hazırlanıb. Dövlətə məxsus hüquqi şəxslərdə qısa müddətdə Apelyasiya şuraları formalaşdırılıb, onların katibliyinin üzvləri müəyyən edilib.

Müşavirədə qarşıda duran vəzifələrin icrası, dövlətə məxsus olan hüquqi şəxslərdə yaradılmış Apelyasiya şuralarının fəaliyyətinin Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurası ilə əlaqələndirilməsi, şuralarda işin günün tələblərinə uyğun şəkildə qurulması və işgüzar əməkdaşlığın yaradılması barədə müzakirələr aparılıb.

Sonra Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasının üzvləri müşavirə iştirakçılarını maraqlandıran sualları cavablandırıblar.




“AtaBank” ASC
Sizi 28 May - Respublika Günü münasibətilə
təbrik edir

“Cənub qaz dəhlizi”nin rəsmi açılışından bir il keçir

# Xəzərdən Adriatik sahillərinə uzanan əməkdaşlıq körpüsü




**2018-ci il mayın 29-da Bakı yaxınlığındakı Səngəçal terminalında “Cənub qaz dəhlizi”nin rəsmi açılış mərasimi keçirilmişdir. “Cənub qaz dəhlizi” Azərbaycan qazının Avropa qitəsinə nəqlini həyata keçirəcək nəhəng bir layihədir. Layihə çərçivəsində çəkiləcək dəhliz dörd mühüm seqmenti birləşdirir.**

Bunlar “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi, CQBK-nın (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsi, TANAP-ın (Transanadolu Qaz Boru Kəməri) və TAP-ın (Transadriatik Qaz Boru Kəməri) çəkilişidir. “Şahdəniz-2”dən qazın əldə olunması və CQBK-nın genişləndirilməsinin başa çatdırılması bir il əvvəl layihənin rəsmi açılışını etməyə imkan vermişdir.

Növbəti ayda - iyunun 12-də TANAP da istismara daxil oldu. Bu münasibətlə Türkiyədə, Əskişəhərdə təntənəli tədbir keçirildi. Beləliklə, artıq bir ildir üç seqmenti müvəffəqiyyətlə fəaliyyət göstərən “Cənub qaz dəhlizi” ilə “Şahdəniz” qazı nəql edilir. Sonuncu seqment olan TAP-ın çəkilişi uğurla yekunlaşmaqdadır. Gələn il bu kəmər də işə düşərək Azərbaycan qazını Avropaya çatdıracaq.

“Cənub qaz dəhlizi”nin uzunluğu 3500 kilometrdir. Dəhlizi təşkil edən, bir-birinə möhkəm “halqa” ilə bağlanan üç kəmər 1,2 trilyon kubmetr ehtiyata malik “Şahdəniz” yatağından hasil olunan qazın Avropa bazarına ötürülməsini təmin edəcək.

Layihə 40 milyard dollar həcmində dəyərləndirilir.

“Cənub qaz dəhlizi”nin təməli 2014-cü il sentyabrın 20-də - “Əsrin müqaviləsi”nin 20 illik yubileyi günü Səngəçal terminalında qoyulmuşdur. Layihənin nəhəngliyini nəzərə alsaq, onun təməlqoyma və açılış mərasimləri arasındakı vaxt çox qısa olmuşdur. Cəmi 4 ilə yaxın bir vaxt ərzində qazanılan böyük uğur - “Cənub qaz dəhlizi”nin işə düşməsi Azərbaycanın bundan əvvəl həyata keçirdiyi qlobal neft-qaz və ixrac layihələrinin təcrübəsinə əsaslanır. Belə ki, Azərbaycan üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini də təxminən 4 ilə çəkmişdir. Sonra bu kəmərlə yanaşı “Şahdəniz-1” qazını Azərbaycanın 13 rayonundan keçməklə Gürcüstana və Türkiyəyə çatdıran Bakı-Tbilisi-Ərzurum boru xəttini inşa etmişdir. Əslində Bakı-Tbilisi-Ərzurum kəməri “Cənub qaz dəhlizi”nin bünövrəsi, başlanğıcı rolunu oynamışdır.

“Cənub qaz dəhlizi”nin açılış mərasimində Prezident İlham Əliyev demişdir: “2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan “Şahdəniz” yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır... Doğrudan da bunlar tarixi nailiyyətlərdir. “Şahdəniz” yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, “Cənub qaz dəhlizi”nin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı”.

İndi bu işlərin əksəriyyəti reallığa çevrilib. Avropanın enerji xəritəsini dəyişdirəcək nəhəng layihə uğurla sona çatmaqdadır.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu, Azərbaycanın liderliyi ilə həyata keçirilən, tarixi əhəmiyyətə malik, xalqımızın firavan gələcəyini təmin edən, regionda, Avropada təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət göstərən qlobal layihədir. Dövlət başçısı, bununla yanaşı, “Cənub qaz dəhlizi”nin beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq şəraitində reallaşdığını da dəfələrlə vurğulamışdır.

“Cənub qaz dəhlizi”nin icrasında yeddi ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya iştirak edirlər. Üç Balkan ölkəsi - Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro da “Cənub qaz dəhlizi”nə çoxdan maraq göstərirdilər. Azərbaycan bu ölkələrlə də Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb.

ABŞ digər mühüm enerji layihələri kimi, “Cənub qaz dəhlizi”nin reallaşmasına da siyasi və mənəvi dəstək vermiş, hərtərəfli kömək etmişdir. ABŞ Prezidenti Donald Tramp Azərbaycan Prezidenti İlham Əliyevə ünvanladığı məktublarda bildirmişdir ki, bu iki ölkə mürəkkəb regional çağırışların həlli üçün birgə işləyərək sıx tərəfdaşlıq edir.

Nəql olunan təbii yanacağın 9 Avropa şirkəti tərəfindən alınması nəzərdə tutulub. Bunlar ingilis-holland “Shell”, Bolqarıstanın “Bulgargaz”, Yunanıstanın DEPA, Almaniyanın “Uniper”, Fransanın “Engie”, İtaliyanın “Hera Trading”, “Edison”, “Enel” və İsveçrənin AXPO şirkətləridir.

“Cənub qaz dəhlizi” Məşvərət Şurasının indiyədək beş iclası keçirilib. Bu tədbirlərin hamısına Azərbaycan evsahibliyi edib. Cari ilin fevral ayında keçirilən beşinci toplantıda yuxarıda adları çəkilən ölkələrlə yanaşı, Böyük Britaniyadan, Macarıstandan, Rumıniyadan, Serbiyadan, San-Marinodan və Türkmənistandan olan nümayəndələr də iştirak etmişlər. Bu, artıq layihənin qlobal xarakterini və böyük beynəlxalq əməkdaşlıq platforması üzərində ucaldığını göstərir. Eyni zamanda, layihəyə maraq göstərən dövlətlərin sayının getdikcə artdığını təsdiqləyir.

“Cənub qaz dəhlizi” Azərbaycan iqtisadiyyatının inkişafında mühüm faktor kimi çıxış edəcək. Bütün iştirakçı ölkələrə və şirkətlərə gəlir gətirəcək. Avropanın enerji təchizatının şaxələndirilməsində ciddi amil olacaq. Dövlətlər və xalqlar arasında əməkdaşlığı, işgüzar əlaqələri inkişaf etdirməklə yanaşı, regionda təhlükəsizliyin və sabitliyin təmin olunmasına müsbət təsir göstərəcək.

*Flora SADIQLI,*
*“Azərbaycan”*

# “LiFFt” festivallar festivalı 98 ölkə üzrə 5 milyard əhalinin yaşadığı geniş bir ərazini əhatə edir

Mayın 27-də Heydər Əliyev Mərkəzində Avrasiya materikinin ədəbiyyat üzrə IV “LiFFt” festivallar festivalının Azərbaycanda keçirilməsinə həsr olunan mətbuat konfransı təşkil olunub.

AZƏRTAC xəbər verir ki, Avrasiya Millətlər Assambleyası və Rusiya Federasiyasının “LiFFt” Beynəlxalq Humanitar Fondu tərəfindən təşkil edilən festival sentyabrın 30-dan oktyabrın 3-dək Bakı şəhərində keçiriləcək.

Layihənin Azərbaycan tərəfdən həmtəşkilatçısı Heydər Əliyev Fondu, tərəfdaşı Bakı Kitab Mərkəzidir.

Birləşmiş Millətlər Təşkilatının himayəsi altında, UNICEF-in dəstəyi ilə keçirilən festivalın mətbuat konfransında məlumat verilib ki, Avrasiya materikinin ədəbiyyat üzrə “LiFFt” festivallar festivalı 98 ölkə üzrə 5 milyard əhalinin yaşadığı geniş bir ərazini əhatə edir.

Mətbuat konfransında IV “LiFFt” festivallar festivalının dünya ədəbiyyatının, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərə diqqət yönəldilməsinə verəcəyi töhfə barədə danışılıb.

Vurğulanıb ki, festivalda nüfuzlu ədəbiyyat nümayəndələrinin iştirakı Azərbaycan ədəbiyyatının inkişafına da töhfə vermiş olacaq. Keçiriləcək ədəbiyyat forumları, “dəyirmi masa”lar, kitab sərgiləri, ustad dərsləri gənc yazarların peşəkar kimi formalaşmasında da əhəmiyyətli rol oynayacaq.

Sonra jurnalistləri maraqlandıran suallar cavablandırılıb.

# Kolerovun atəşkəsin 25 illiyi ilə bağlı fikirləri münaqişə haqqında məlumatı olmayan oxucunu aldatmağa yönəlib

## Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması “Regnum” agentliyinin baş redaktorunun ermənipərəst və qərəzli fikirlərinə münasibət bildirib

**Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması “Regnum” informasiya agentliyinin baş redaktoru Modest Kolerovun atəşkəsin 25 illiyi ilə bağlı səsləndirdiyi fikirlərinə dair bəyanat yayıb.**

Bu barədə AZƏRTAC-a İcmanın mətbuat xidmətindən məlumat verilib.

Bəyanatda deyilir: “Rusiyada fəaliyyət göstərən və Azərbaycanın əleyhinə yönəlmiş qərəzli və ermənipərəst mövqeyi ilə seçilən “Regnum” informasiya agentliyinin baş redaktoru Modest Kolerovun atəşkəsin 25 illiyinə həsr edilmiş “Naqornıy Karabax: pravo na “dostoynoe qosudarstvennoe suhestvovanie” başlıqlı “tezisləri” eyni adlı saytda dərc edilib.

Modest Kolerovun “tezislərini” nəzərdən keçirdikdə, bu şəxsin əvvəlcədən sərgilədiyi qərəzli mövqe və Ermənistan-Azərbaycan münaqişəsinə dair naşı münasibəti təəccüb doğurmur. Kolerov “layiqli insan mövcudluğu” tezisindən söhbət açaraq, bu abstrakt fikrini Dağlıq Qarabağ problemi ilə əlaqələndirməyə cəhd göstərir. O iddia edir ki, qondarma “dağlıq qarabağ respublikası”nın “müstəqillik hüququnun” reallaşdırılması üçün onun “layiqli dövlətçiliyinin mövcudluğu” təmin edilməlidir. Özünü informasiya agentliyinin baş redaktoru kimi təqdim edən şəxsə xatırladırıq ki, “dağlıq qarabağ respublikası” adlanan qondarma qanunsuz qurumun mövcudluğunun heç bir tarixi, hüquqi və ya digər əsasları yoxdur ki, onun “qorunması və ya təmin edilməsi” ətrafında hər hansı abstrakt müzakirələr aparıla bilsin.

“Layiqli insan mövcudluğu və dövlətçilik” ideyasından dəm vuran Kolerov Ermənistanın təcavüzkar siyasəti nəticəsində öz torpaqlarından qovulmuş və etnik təmizləməyə məruz qalmış yüz minlərlə azərbaycanlının layiqli insan kimi yaşamaq və mövcud olmaq hüquqlarını məgər görmür?! Kolerov özünü əgər bu qədər ağıllı hesab edərək “insanın ləyaqətli mövcudluğu”na qayğı ilə yanaşdığını göstərmək istəyirsə, onun məhdud çərçivədən kənara çıxaraq daha geniş düşünməsi mümkün olmazdımı?! Yersiz və populist arqumentlər irəli sürən və öz fikirlərinə “ləyaqətli yaşam” tezisləri ilə məsum “donu geyindirməyə” çalışan Kolerov əslində Ermənistanın təcavüzkar siyasətinə bəraət qazandırmağa cəhd edir. Onun bu “cəhdləri” əslində münaqişə haqqında məlumatı olmayan oxucunu aldatmağa yönəlib. Amma regionu tanıyan və Ermənistan-Azərbaycan münaqişəsi haqqında minimum məlumata malik olan şəxs üçün ermənipərəst müəllifin cəfəng fikirləri istehza doğurur.

Çox təəccüblüdür ki, “baş redaktor” olan bir şəxs beynəlxalq hüquq, ölkələrin suverenliyi, beynəlxalq tanınmış sərhədləri, ərazi bütövlüyü, beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi üçün beynəlxalq hüququn qəbul edilmiş norma və prinsiplərini dərk edə bilməyib. BMT Təhlükəsizlik Şurası və digər mötəbər beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan münaqişəsi haqqında qəbul etdikləri qətnamə və sənədləri ni anlamayan şəxsin hansısa “ləyaqət”dən danışması gülüncdür.

Müəllifin digər məntiqsiz bir arqumenti “dağlıq qarabağ respublikasının mövcudluğu” ilə Ermənistanın taleyini müqayisə etməsi və “dqr”in olmayacağı təqdirdə, Ermənistanın məhvə düçar olacağını iddia etməsidir. Azərbaycanın işğal edilmiş torpaqlarının azad edilməsi ilə Ermənistanın taleyi arasında əlaqə axtarmaq heç bir əsası olmayan populist düşüncədən başqa heç nə deyil. Ölkəmizin işğal olunmuş torpaqlarının azad edilməsi nəinki Ermənistana təhdid yaratmaz, əksinə, bu ölkənin Azərbaycanla əməkdaşlıq imkanlarından yararlanaraq daha güclü və dayanıqlı inkişaf etməsinə səbəb olardı. Məgər bunu başa düşmək çox çətindir?! Kolerovun bu fikirləri məhz Ermənistana xələl gətirir və onun gələcək inkişafına maneə yaradır. Azərbaycanın heç kimin torpaqlarında gözü yoxdur, ölkəmiz təcavüzkar Ermənistan ordusunun işğal etdiyi ərazilərdən çıxarılmasını tələb edir.

Bəyan etmək istərdik ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmalarının ləyaqətli şəkildə mövcudluğu və yenidən sülh şəraitində birgə yaşayışının təmin edilməsinin yolu Azərbaycanın beynəlxalq tanınmış sərhədlərinin bərpası və işğalçı Ermənistan qüvvələrinin oradan çıxarılmasından keçir. Hər iki icmanın qeyd olunan şərtlər daxilində birgə yaşayışının yenidən təmin edilməsi ilə Modest Kolerov kimilərinin təxribatçı və manipulyativ xarakterli fikirlərinin yayılmasına imkan olmayacaq.

Biz Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasına bir daha səslənir və səsimizə səs verməyə çağırırıq. Zaman göstərdi ki, ötən 30 il Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin erməni icmasına problemlər, iqtisadi durğunluq, ləyaqətli insan yaşayışından məhrum olmaq və fəlakətdən başqa heç nə bəxş etmədi.

Hər iki icmanın firavan və ləyaqətli gələcəyi naminə qeyd etdiklərimizi dərk etməyin vaxtı çoxdan yetişib”.

# Azərbaycan ombudsmanı Düşənbə şəhərində beynəlxalq elmi-praktik konfransda iştirak edib



Azərbaycan ombudsmanı Elmira Süleymanova Tacikistanın insan hüquqları üzrə müvəkkili tərəfindən Düşənbə şəhərində təşkil olunan “Tacikistan Respublikasında İnsan Hüquqları üzrə Müvəkkil: nailiyyətlər və perspektivlər” mövzusunda beynəlxalq elmi-praktik konfransda iştirak edib.

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, tədbirdə Orta Asiya ölkələrinin insan hüquqları üzrə ombudsmanları və ekspertləri ilə yanaşı, dövlət orqanlarının rəhbərləri, ATƏT, Avropa İttifaqı, BMT və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının, milli hüquq müdafiə təşkilatlarının və digər beynəlxalq qurumların, eləcə də elmi ictimaiyyətin və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak ediblər.

Beynəlxalq konfrans çərçivəsində milli insan hüquqları institutlarının indiki dövr üçün dörd əsas istiqamət üzrə fəaliyyətləri nəzərdən keçirilib. Tədbir çərçivəsində Mərkəzi Asiya ölkələrində milli insan hüquqları institutlarının yaradılması, qazanılan təcrübələr, nailiyyətlər, problemlər və regional əməkdaşlığın perspektivləri, Paris prinsiplərinin milli insan hüquqları qurumlarının fəaliyyətində tətbiqi və digər mövzular üzrə sessiyalarda geniş fikir mübadiləsi aparılıb.

“İnsan hüquqları sahəsində beynəlxalq öhdəliklərin həyata keçrilməsində milli insan hüquqları institutlarının rolu” mövzusuna həsr olunmuş sessiyada E.Süleymanova “Ombudsmanın fəaliyyətində beynəlxalq hüquqi normalar” mövzusunda geniş məruzə ilə çıxış edib və Azərbaycanın zəngin təcrübəsi haqqında geniş məlumat verib.

Çıxışında müvəkkil Azərbaycan ombudsman təsisatının milli insan hüquqları institutu olaraq Paris prinsipləri əsasında fəaliyyət göstərən müstəqil bir qurum olduğu və müvəkkil mandatı çərçivəsində insan hüquqlarının müdafiəsində, vətəndaş mühitinin qorunmasında, insan hüquqlarının və qanunun aliliyinin təşviq edilməsində, vətəndaş cəmiyyətinin dəstəklənməsində bütün imkanlarından istifadə etdiyini və əməkdaşlığa hər zaman açıq olduğunu qeyd edib.

O bildirib ki, Azərbaycan ombudsmanının təşəbbüsü ilə insan hüquqları üzrə müvəkkil yanında müxtəlif qeyri-hökumət təşkilatlarının və müstəqil ekspertlərin, hüquq müdafiəçilərinin təmsil olunduğu müstəqil ekspertlər şurası fəaliyyət göstərir. Bu şura ölkədə insan hüquqlarının əsas istiqamətləri üzrə vəziyyətin təhlil edilməsi, milli qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq hüquqi sənədlərin implementasiyası üzrə təkliflərin hazırlanması işinə mühüm töhfələr verir.

Elmira Süleymanova ombudsmanın heç bir ayrı-seçkiliyə yol vermədən əhalinin bütün qruplarının, o cümlədən artıq 30 ilə yaxındır ki, davam edən erməni təcavüzü nəticəsində öz doğma torpaqlarından didərgin düşən qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi istiqamətində fəaliyyət göstərdiyini bildirib.

Səfər çərçivəsində Mərkəzi Asiya milli insan hüquqları təsisatlarının nümayəndələri ilə fikir mübadilələri aparılıb, insan hüquqlarının prioritet məsələləri üzrə əməkdaşlıq perspektivləri müzakirə olunub.

**Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dünya miqyasında bir tarixi hadisə idi. İlk dəfə olaraq Şərqdə, müsəlman aləmində demokratik respublika yaranmışdı. Azərbaycan xalqı üçün isə bu, xüsusi əhəmiyyətli hadisə idi. Azərbaycan xalqı öz müstəqil dövlətini yaratmışdı. Əsrlər boyu müstəqillik arzusu ilə yaşayan Azərbaycan xalqı, nəhayət, öz müstəqil dövlətinə sahib olmuşdu.**

**İlham ƏLİYEV**



GILAN HOLDING

**Azərbaycan xalqını**

**28 May - Respublika Günü**

**münasibətilə təbrik edir, ölkəmizə davamlı inkişaf və əbədi müstəqillik arzulayır!**

# "Azərbaycanda biz Ermənistanın yeni rəhbərliyinin sağlam düşüncə nümayiş etdirəcəyinə ümid bəsləyirik"

## Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Yerevan ilə Dağlıq Qarabağa dair danışıqlar haqqında

*Rusiyanın nüfuzlu "Kommersant" qəzetinin 27 may tarixli nömrəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun geniş müsahibəsi dərc olunub.* AZƏRTAC *müsahibəni təqdim edir.*

* * *

Ermənistanın hakimiyyət orqanları iddia edirlər ki, qondarma "Dağlıq Qarabağ Respublikası"nın nümayəndələri danışıqlara cəlb edilmədən Dağlıq Qarabağda münaqişənin həlli mümkün deyil. Azərbaycan XİN rəhbəri Elmar Məmmədyarov "Kommersant" qəzetinin suallarına yazılı şəkildə cavab verərək bunun nəyə görə mümkün olmadığını, Nikol Paşinyan başda olmaqla Ermənistan hökumətindən Bakının nə gözlədiyini, habelə danışıqlar prosesində nəzərəçarpacaq tərəqqi olmadan xalqlar arasında qarşılıqlı etimadı bərpa etməyin mümkün olub-olmamasını izah edib.

*- Ermənistanda hakimiyyətin dəyişməsindən bir il keçib. Nikol Paşinyan hökumətinin Dağlıq Qarabağ məsələsinə daha konstruktiv yanaşacağı barədə Bakının gözləntiləri doğrulubmu?*

- İlk növbədə qeyd etmək istərdim ki, Ermənistanın əvvəlki hökumətləri özlərinin bilavasitə beynəlxalq öhdəliklərini yerinə yetirməkdən hər vasitə ilə yayınmağa çalışırdı. BMT-nin üzvü olan Ermənistan həm də bu qlobal təşkilatın nizamnamə müddəaları, beynəlxalq hüququn norma və prinsipləri ilə bağlıdır. Ərazilər tutulması məqsədilə güc tətbiq edilməsinin yolverilməzliyi, ərazi bütövlüyünə hörmət və dövlət sərhədlərinin toxunulmazlığı, beynəlxalq mübahisələrin dinc vasitələrlə həlli və sair tələblərin təsbit olunduğu bu universal ümumi çərçivələrlə yanaşı, BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş, Azərbaycan ərazilərinin işğal edilməsi ilə bilavasitə bağlı olan dörd məlum qətnaməsi var. Məlum olduğu kimi, yuxarıda sadalanan bütün prinsiplərin və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin müddəti yoxdur və onlar imperativ xarakter daşıyır, yəni onlara riayət edilməlidir. Təəssüf ki, Ermənistan Respublikasının rəhbərliyi uzun illər ərzində beynəlxalq birliyin bu birmənalı tələblərinin yerinə yetirilməsi üçün xeyirxah siyasi iradə nümayiş etdirməyib, bu da nəticə etibarilə Yerevanın genişmiqyaslı regional əməkdaşlıqdan təcrid olunmasına, ölkədə durğunluğa və dərin sosial-siyasi böhrana gətirib çıxarıb. Nəticədə sizin xatırlatdığınız hadisələr baş verdi və Nikol Paşinyanın hökuməti hakimiyyətə gəldi.

Əlbəttə, Azərbaycanda biz müəyyən dərəcədə ümid edirik ki, qonşu ölkənin yeni rəhbərliyi sağlam düşüncə nümayiş etdirəcək, başa düşəcək ki, Ermənistan təcavüz və işğal siyasəti yürütməklə özünü çıxılmaz vəziyyətə salıb və Azərbaycan ilə münasibətlər nizamlanmadan, genişmiqyaslı regional əməkdaşlığa inteqrasiya olunmadan Ermənistanı bu vəziyyətdən xilas etmək qeyri-mümkündür. Biz öz tərəfimizdən müəyyən zaman fasiləsi verdik ki, Ermənistanın yeni siyasi rəhbərliyi danışıqlar prosesinin detalları ilə tanış olsun. Bu keçid dövrü başa çatıb, həm iki ölkənin liderləri səviyyəsində, həm də xarici siyasət idarələrinin rəhbərləri səviyyəsində danışıqlar bərpa olunub. Belə ki, mən bu il ATƏT-in Minsk qrupunun həmsədrlərinin (Rusiya, Fransa və ABŞ-ın - "Kommersant") vasitəçiliyi ilə iki dəfə - yanvar ayında Parisdə və aprel ayında Moskvada erməni həmkarımla (Zoqrab Mnatsakanyanla - "Kommersant") görüşmüşəm. Bizim görüşümüz Rusiyanın xarici işlər naziri Sergey Lavrovun iştirakı ilə üçtərəfli formatda keçdi. Mövcud formatda dialoq məlum gündəlik üzrə aparılır və bu, müəyyən optimizm doğurur.

Bununla bərabər, bəzən praktiki olaraq danışıqlar prosesi çərçivəsində keçirilən görüşlərlə eyni vaxtda Ermənistan tərəfindən heç də birmənalı olmayan və siyasi nizamlamanın bütün konstruksiyasına kölgə salan bəyanatlar səslənir. Təəssüf ki, bu bəyanatlar heç də təsadüfi xarakter daşımır və əlbəttə, təşviş doğurur.

Buna görə deyə bilərəm ki, keçən il hadisələrlə zəngin və ziddiyyətli olub. İndi isə biz danışıqlar prosesini irəlilətmək üçün ilk növbədə Ermənistan Respublikasının rəhbərliyi tərəfindən siyasi iradə nümayiş etdirilməsini gözləyirik.




*- Siz bu yaxınlarda Parisdə erməni həmkarınızla humanitar əlaqələri nizamlamaq - jurnalistlərin və məhbusların qohumlarının qarşılıqlı səfərlərini təşkil etmək barədə razılığa gəlmisiniz. Bu razılaşmaların reallaşması necə gedir?*

- Azərbaycan hər iki tərəfdən saxlanılan şəxslərin "hamının hamıya" prinsipi üzrə mübadilə olunmasını dəfələrlə təklif edib. Saxlanılan şəxslərin və hərbi əsirlərin "hamının hamıya" prinsipi üzrə mübadilə olunması dünya praktikasında qəbul edilmiş ümumi prinsipdir və o cümlədən ATƏT-in Minsk qrupunun həmsədr ölkələri tərəfindən dəstəklənir.

Biz əminik ki, bu, danışıqlar prosesində daha da irəliləmək və hər iki ölkənin cəmiyyətlərini sülhə hazırlamaq üçün daha əlverişli emosional fon yarada bilər.

Real səfərlərin həyata keçirilməsinə gəldikdə isə, burada, ilk növbədə, konkret, necə deyərlər ölçülüb-biçilmiş təkliflər istiqamətində işləmək, bunun hər iki cəmiyyət üçün çox həssas mövzu olmasını başa düşmək, başqa sözlə desək, sülhün ziyanına deyil, onun xeyrinə işləmək lazımdır.

*- Yerevanda eşitdim ki, 2016-cı ildə Dağlıq Qarabağda münaqişənin əsas səbəbi 2012-ci ildə Ramil Səfərovun (2004-cü ildə erməni zabit Qurgen Marqaryanı öldürmüş və öz vətənində qəhrəman olmuş azərbaycanlı hərbçi - "Kommersant") təltif edilməsi olub. Bunu siz necə şərh edərsiniz?*

- Biz qəti əminik və yeri gəlmişkən, praktiki olaraq bütün beynəlxalq birlik də belə hesab edir, bir sıra beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı qətnamə və qərarlar da bunu sübut edir ki, problemin əsas səbəbi - dönüş nöqtələri ilə və onlarsız - ermənilər tərəfindən həyata keçirilmiş təcavüz aktları, Azərbaycan ərazilərinin işğal edilməsi və oradakı bütün azərbaycanlı əhalinin etnik təmizləməyə məruz qalması, o cümlədən Dağlıq Qarabağdakı Xocalı şəhərində (1992-ci ildə - "Kommersant") törədilmiş dəhşətli soyqırımı aktı, erməni hərbçilər tərəfindən bu şəhərin dinc əhalisinin yalnız azərbaycanlı olduğuna görə məhv edilməsi olub.

2016-cı il aprel hadisələrinə gəldikdə isə, onlar əyani şəkildə sübut etdi ki, hazırda mövcud olan, Azərbaycan torpaqlarının işğalına əsaslanan, artıq dediyim kimi, qəddar etnik təmizləmələrlə müşayiət olunan status-kvo çox böyük riskdir və istənilən anda mövcud münaqişənin silahlı şəkildə eskalasiyasına gətirib çıxara bilər.

Başqa sözlə desək, bütün problemlərin, o cümlədən müharibənin yenidən başlanması riski ilə atəşkəs rejiminin pozulmasının səbəbi məhz Ermənistan Respublikasının işğalçı qüvvələrinin Azərbaycan Respublikasının işğal edilmiş və zorla əldə saxlanılan ərazilərində qeyri-qanuni şəkildə olmasının davam etməsidir. Bu səbəbdən yüz minlərlə azərbaycanlı məcburi köçkünlər, o cümlədən Ramil Səfərovun Cəbrayıl rayonundan qovulmuş ailəsi oraya qayıda bilmir.

*- Ekspertlər arasında belə bir fikir var ki, ərazilərin qaytarılması, Dağlıq Qarabağın gələcək statusu və qaçqınların qayıtması kimi məsələlərin indiki şəraitdə müzakirə edilməsi, sadəcə, mənasızdır və bu səbəbdən həmin müzakirələri təxirə salmaq, qarşılıqlı etimadın bərpa edilməsi ilə məşğul olmaq lazımdır.*

- Mən düşünürəm ki, məhz bunun əksi olmalıdır. Bu qədər insan öz doğma şəhərlərindən və kəndlərindən qovulmuş olduğu halda qarşılıqlı etimadı necə bərpa edə bilərik? Əgər etimadı bərpa etmək üçün göstərilən cəhdlər danışıqlar prosesində real addımlarla və münaqişənin nizamlanması, onun ağır nəticələrinin aradan qaldırılması üçün aşkar siyasi iradə nümayiş etdirilməsi ilə təsdiqlənmirsə, bu cəhdlərin hamısı uğursuzluğa məhkumdur. Buna görə də biz məhz addım-addım nizamlama istiqamətində hərəkət etməliyik, bu hərəkətin başlanğıcı isə işğalçı qüvvələrin Azərbaycan ərazisindən çıxarılması və bundan sonra məcburi köçkünlərin oraya qaytarılması olmalıdır. Məhz bu halda etimadın bərpası üçün nəzərəçarpacaq şərait yaranar.

Bir-birinə etimad göstərmək üçün ən azı daim əlaqədə olmaq lazımdır. Məsələn, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun azərbaycanlılar icması tərk etdikləri yurdlarına qayıtmağa və regionun erməni icması ilə birlikdə əlaqələri nizamlamağa, etimadı bərpa etməyə və sülhü qaytarmağa hazırdır.

*- Sizin erməni həmkarınız danışıqların formatına qondarma "Dağlıq Qarabağ Respublikası"nın hakimiyyət orqanlarının daxil edilməsi zərurətini əsaslandırmaq üçün bəyan edib ki, onlar Yerevana tabe deyildir, yəni Yerevan sizinlə Zoqrab Mnatsakanyanın danışıqlarda əldə edə biləcəyiniz hipotetik qərarı onlara zorla qəbul etdirə bilməz. Siz bu arqumentə necə cavab verə bilərsiniz?*

- Bəs siz Yerevanda soruşmadınız ki, Ermənistan Respublikasının ali siyasi rəhbərliyinin bəzi nümayəndələrinin oğlanları müddətli hərbi xidməti harada keçirlər? Bu ölkənin indiki prezidenti və baş naziri tez-tez haraya gedirlər? Sizin xatırlatdığınız oyuncaq qurumun büdcəsi əsasən kimin vergi ödəyiciləri hesabına formalaşır?

Hər şey çox sadədir - münaqişə tərəfi kimi Ermənistan Respublikasının tərəf-müqabili Azərbaycan Respublikasıdır. Bu format Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Nazirlər Şurasının 24 mart 1992-ci il tarixli qərarı ilə təsdiq edilib. Reallıq belədir. Bütün qalan məsələlər ya yozumdur, ya da uydurma bəhanələr altında nizamlama prosesini uzatmaq cəhdləridir.

*- Nikol Paşinyan bu yaxınlarda bəyan edib ki, o, danışıqlar prosesini uzatmaq və ya tormozlamaq niyyətində deyil. Bu barədə siz nə fikirləşirsiniz?*

- Biz belə yanaşmanı yalnız dəstəkləyə bilərik. Azərbaycan münaqişənin tezliklə nizamlanmasında birmənalı olaraq maraqlı tərəfdir. Biz hələ də ümid edirik ki, münaqişəni məhz danışıqlar yolu ilə nizamlamaq mümkündür.

Fikrimcə, erməni tərəfi də bunda maraqlı olmalıdır. Axı münaqişənin uzanması erməni xalqına da saysız-hesabsız iztirablar gətirib. Azərbaycan ərazilərinin tutulması və bütün bu illər ərzində onların işğalının davam etdirilməsi Ermənistana hər hansı nəzərəçarpacaq dividendlər gətirməyib. Əvəzində bu, yoxsulluq səviyyəsinin, işsizliyin artmasına, əhalinin ölkədən kənara axmasına və böhranın digər təzahürlərinə gətirib çıxarıb. Necə deyərlər, siyasətçi seçkilər haqqında, dövlət lideri isə gələcək nəsillər haqqında düşünür.

Əgər erməni tərəfinin məqsədi münaqişəni nizamlamaqdırsa, o, lüzumsuz bəhanələr axtarmaq əvəzinə birmənalı şəkildə siyasi iradə nümayiş etdirməli və bu istiqamətdə praktiki addımlar atmalıdır. Biz isə öz tərəfimizdən bu cür yanaşmanı hərtərəfli alqışlayacağıq. Bu yanaşmanı təkcə bəyan etmək yox, həyata keçirmək lazımdır.

## Azərbaycanın Xarici İşlər nazirinin müavini gürcüstanlı həmkarının fikrinə münasibət bildirib

Gürcüstanın Xarici İşlər nazirinin müavini Laşa Darsaliya Azərbaycanla Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə komissiyaların son iclasında müzakirə olunan məsələləri şərh edərkən deyib: "İclasda biz status-kvonun hər hansı şəkildə dəyişilməsi barədə təsəvvürün meydana gəlməsinə xidmət edən addımların atılmamasının vacibliyi məsələsini qaldırdıq".

AZƏRTAC xəbər verir ki, bununla bağlı KİV-in sualını cavablandıran Azərbaycanın Xarici İşlər nazirinin müavini Xələf Xələfov deyib: "Beynəlxalq hüquqa əsasən, SSRİ-nin süqutundan sonra Azərbaycan Respublikası və Gürcüstan avtomatik olaraq aralarında mövcud olan əvvəlki inzibati sərhədlərin varisi olublar. Sonradan bu sərhədlər dövlət sərhədləri oldu və iki ölkənin sərhəd xidmətlərinin nəzarəti altına keçdi. "Keşikçidağ" hissəsində sərhəd həmişə olub və o, Azərbaycan və Gürcüstan sərhəd xidmətləri tərəfindən qorunurdu və qorunmaqda davam etdirilir.

Gürcüstanlı zəvvarların "Keşikçidağ" qoruğunun ərazisində yerləşən mağaralara keçidləri gürcü tərəfinin xahişinə və qarşılıqlı razılaşmaya əsasən Azərbaycan sərhədçilərinin nəzarəti altında gerçəkləşirdi. Belə vəziyyət bu gün də davam edir. Öz ərazisində bəzi təsərrüfat və ya digər işlərin həyata keçirilməsinə gəldikdə isə, bu, hər bir tərəfin suveren hüququdur".

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Azərbaycan xalqını
28 May -
Respublika Günü
münasibətilə təbrik edir, bolluq,
firavanlıq və işıqlı gələcək arzulayır




Coca-Cola
şirkəti Azərbaycan xalqını
28 May -
Respublika Günü
münasibətilə
təbrik edir,
bolluq, firavanlıq və
xoşbəxt həyat arzulayır.
Bayramınız mübarək!

iceland DONDURMALARI
CAMAL LTD




# RAGB-nin sədri Leyla Əliyevanın təşəbbüsü ilə Moskvada veloyürüş təşkil olunub

Moskvada Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə veloyürüş təşkil olunub.

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 101 illiyinə həsr edilib.

Veloyürüşdə RAGB-nin fəalları, həmçinin dəvət olunmuş qonaqlar iştirak ediblər.



Marafonun təşkil edilməsi sağlam həyat tərzinin təbliği, gənclərin müntəzəm idman məşğələlərinə qoşulması, həmçinin onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsi məqsədi daşıyır. Tədbir bütün iştirakçıların salamlanması, ümumi xatirə şəklinin çəkilməsi və marşrut barədə təlimat verilməsi ilə başlayıb.

Qeyd edək ki, Moskva Dövlət Universitetinin əsas binasından başlayaraq Qorki parkınadək və geriyə uzanan marşrutun uzunluğu 10 kilometrə bərabər olub. Veloyürüş iştirakçıları marşrut boyunca hərəkət zamanı iki dəfə dayanıblar. Dayanacaqlarda mədəni-əyləncəli proqram, o cümlədən “Qarabağ” milli rəqs ansamblının hazırladığı şou nümayiş etdirilib.

Veloyürüşün sonunda təşkilatçılar bütün iştirakçılara və qonaqlara təşəkkür edib, həmçinin göstərdiyi dəstəyə və bu təşəbbüsə görə RAGB-nin sədri Leyla Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# “Pekin Ekspo 2019” Botanika Sərgisi çərçivəsində Heydər Əliyev Mərkəzinin dəstəyi ilə Azərbaycan milli günü keçirilib





Çin Xalq Respublikasının paytaxtında keçirilən “Pekin Ekspo 2019” Botanika Sərgisi çərçivəsində Heydər Əliyev Mərkəzinin dəstəyi ilə Azərbaycan milli günü keçirilib.

AZƏRTAC xəbər verir ki, sərginin iştirakçıları olan ölkələrin təmsilçilərinin, diplomatların, Pekin ictimaiyyətinin nümayəndələrinin qatıldıqları tədbirdə çıxış edən Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı belə bir beynəlxalq tədbirin Çində təşkil edilməsinin və Azərbaycanın Çin ilə əlaqələrə verdiyi önəmin göstəricisi kimi, bu sərgidə öz milli pavilyonu ilə iştirak etməsinin çox əlamətdar olduğunu deyib. O, hazırda Azərbaycanda təbiətin və ətraf mühitin mühafizəsi, yaşıllıqların, qoruqların və meşə massivlərinin salınması, flora və faunanın qorunması istiqamətində geniş fəaliyyətin həyata keçirildiyini, bu işlərin Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın nəzarətində olduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təsisçisi və rəhbəri olduğu IDEA İctimai Birliyi də ətraf mühitin mühafizəsi ilə bağlı çoxsaylı layihələr həyata keçirir.



“Pekin Ekspo 2019” Botanika Sərgisi baş komissarının müavini Can İnçao Çinin Avrasiyanın mərkəzində, mühüm nəqliyyat və ticarət yollarının üzərində yerləşən Azərbaycan ilə hələ tarixi İpək yolu dövründən dostluq münasibətlərinin yarandığını bildirib. O, sərginin dünya ictimaiyyətinin diqqətini ətraf mühitin mühafizəsinə, təbiətin qorunmasına yönəltmək məqsədi daşıdığını vurğulayaraq Azərbaycanın da bu sərgidə iştirakının ölkəmizin bu sahədə qazandığı uğurların nümayişi ilə yanaşı, xalqımızın zəngin mədəni irsinin tanıdılması baxımından böyük əhəmiyyət kəsb etdiyini deyib.

Bir aydır davam edən sərginin ən maraqlı pavilyonlarından birinin məhz Azərbaycana aid olduğunu qeyd edən Can İnçao Azərbaycanın bu sərgidə iştirakının ölkələrimiz və xalqlarımız arasında dostluğun möhkəmlənməsinə də töhfələr verdiyini vurğulayıb.

Sonra Azərbaycandan dəvət olunan incəsənət ustalarının çıxışları olub. Milli musiqimiz, muğamlarımız, xalq mahnıları, rəqslərimiz, eləcə də əməkdar artist Sahib Paşazadənin tarda ifa etdiyi Çin xalq musiqisi Azərbaycan milli gününə toplaşanların marağına və alqışlarına səbəb olub.

Qeyd edək ki, “Təbiəti qoruyaq, daha yaxşı yaşayaq” mövzusunda keçirilən botanika sərgisində Azərbaycan milli pavilyonu Heydər Əliyev Mərkəzinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə hazırlanıb. “Azərbaycan: təbiət və incəsənətin harmoniyası” adlanan milli pavilyonun ümumi konsepsiyası ölkəmizin öz tarix və ənənələrinə sadiq qalaraq daim inkişafda olduğunu nümayiş etdirir. Pavilyonun interyer dizaynı ölkəmizin adət-ənənələrini nümayiş etdirir. Azərbaycan xalçalarının timsalında incəsənət və təbiətin yaxın əlaqəsi diqqətə çatdırılır, ətraf mühitin qorunmasının vacibliyi vurğulanır. Pavilyonda xalçalarda istifadə olunan rənglər əsasında landşaft dizaynı hazırlanıb və buna uyğun bitki çeşidləri əkilib. Burada, həmçinin Azərbaycan təbiətinə xas olan ağac və çiçəklər təqdim edilir.

“Təbiəti qoruyaq, daha yaxşı yaşayaq” mövzusunda keçirilən “Pekin Ekspo 2019” sərgisi 503 hektar ərazini əhatə edir. Oktyabrın 7-dək davam edəcək sərgini 16 milyon nəfərin ziyarət edəcəyi gözlənilir.

# Heydər Əliyev Mərkəzində “Tarixin şah əsərləri” adlı sərgi açılıb





Mayın 27-də Heydər Əliyev Mərkəzində Gürcüstan Milli Muzeyindəki Azərbaycan və Şərq kolleksiyalarından ibarət “Tarixin şah əsərləri” adlı sərginin açılış mərasimi keçirilib.



AZƏRTAC xəbər verir ki, açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Fuad Axundov çıxış edərək sərginin əhəmiyyətindən danışıb. Qeyd edib ki, beş il əvvəl Gürcüstan Milli Muzeyində Azərbaycana aid minlərlə tarixi, mədəni artefaktın olduğu məlum oldu. Bununla əlaqədar Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi və qərara gəlindi ki, bu materiallar əsasında möhtəşəm sərgi təşkil olunsun.



Sərginin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirən Fuad Axundov bu işin ərsəyə gəlməsində Mədəniyyət Nazirliyinin və Gürcüstan Milli Muzeyinin birgə xeyli iş gördüyünü diqqətə çatdırıb. “Sərgidə nümayiş olunan şəkillərin böyük bir qismi bərpa edilib. Gürcüstanın Milli Muzeyi yaranan gündən bu artefaktları toplayaraq günümüzədək qoruyub saxlayıb. Buna görə gürcüstanlı həmkarlarımıza təşəkkürümü bildirirəm”, - deyə o qeyd edib.

Gürcüstan Milli Muzeyinin baş direktoru, akademik David Lordkipanidze bildirib ki, sərgidə nümayiş olunan qədim sənət nümunələrini Azərbaycan sənətçilərinin şah əsəri hesab etmək olar. O, sərginin tamaşaçıların rəğbətini qazanacağına əminliyini ifadə edib.

Diqqətə çatdırılıb ki, oktyabrın 6-dək davam edəcək sərgidə 300-dək eksponat təqdim edilir. Üç bölmədə Qacarlar sülaləsi zamanı yaradılan və toplanan qədim Azərbaycan incəsənəti, İrəvan xanlığının Sərdar sarayı kompleksindən məişət əşyaları və rəsm əsərlərinin kolleksiyası və rus fotoqraf Dmitri Yermakovun arxivindən əldə edilmiş fotosənədlər nümayiş olunur.

Sərgidə Qacarlar epoxasına aid qədim incəsənət nümunələrinin əksəriyyəti Fətəli şah dövrünə aid dünyaca məşhur yağlı boya rəsmləri, miniatürlər, keramika, metal məmulatları, tekstil və xalçalarla təqdim edilir. Təsvirin gücünü yaxşı bilən Fətəli şah nüfuzunu və nailiyyətlərini nümayiş etdirmək üçün memarlıq, rəsm və dekorativ sənətdən geniş istifadə edirdi. Sərgidə Fətəli şahın özünün portreti də yer alıb.

Ekspozisiyada, həmçinin Azərbaycan panno rəngkarlığının banisi, Azərbaycan təsviri incəsənətinə böyük təsir göstərmiş ornament və portret ustası Mirzə Qədim İrəvaninin XIX əsrə aid yağlı boya ilə işlənmiş altı əsəri sərgilənir. Ermənistan tərəfindən məhv edilmiş İrəvan xanlığının sarayından qalan nadir rəsm əsərlərində Şah Qacar, İrəvan hökmdarları və Şərq eposlarının qəhrəmanları təsvir olunub. Mirzə Qədim İrəvani tikmə üçün olan trafaret rəsmləri, divar naxışları, zərgərlik məmulatları, lakla çəkilmiş rəsm əsərləri və şüşə rəssamlığı ilə tanınır. XIX əsrin ortalarında İrəvan xanlığının Sərdar sarayının salamat qalmış orijinal əsərlərini, həmin saray kompleksinin məscid və sarayının dekorunda işlədilən plitələri yenidən boyamış şəxs məhz o olub.

Qeyd edilib ki, Sərdar sarayının arxeoloji qalıqları arasında İrəvan xanlığı və müasir Ermənistan ərazisində yaşamış Azərbaycan xalqına məxsus ənənəvi kostyum və əşyalar, eləcə də mebel nümunələri, vazalar və digər gündəlik həyat atributlarından ibarət etnoqrafik kolleksiya da ekspozisiyada təqdim olunur. Bu eksponatlarla tanışlıq o dövrün həyat və məişət mənzərəsini daha aydın təsəvvür etməyə imkan verir, sarayın memarlıq üslubunu nümayiş etdirir.

Sərgidə hərbi topoqraf kimi çalışan, sonra isə 1877-1878-ci illərdə Rusiya-Osmanlı müharibəsində iştirak etmiş D.Yermakovun fotoşəkillərindən ibarət kolleksiya da təqdim olunur. Müharibədən sonra Yermakov Tiflisdə foto işi ilə məşğul olub, Qafqaz bölgəsinə səyahətlər edib və bir sıra arxeoloji ekspedisiyalarda fəaliyyət göstərib. O, İrəvan qalasının nadir tikililəri - Sərdar sarayı, məscidlər, karvansara və İrəvan şəhərinin tarixi mərkəzini təşkil etmiş orta əsrlərə aid digər binaların məhv edilməsi prosesini təfərrüatları ilə göstərən fotoşəkillər silsiləsini yaradıb.

Tədbir çərçivəsində, həmçinin Gürcüstan Milli Muzeyinin baş kuratoru, tarixçi professor Eldar Nadiradzenin “İrəvan xanlığı: tarixi və mədəni profili” kitabının təqdimatı keçirilib.

Kitabın müəllifi, professor Eldar Nadiradze nəşr haqqında fikirlərini bölüşüb. Bildirib ki, Azərbaycan, ingilis və rus dillərində nəşr olunan kitabda İrəvan xanlığının tarixi, hökmdarları, İrəvan qalası uğrunda aparılan döyüşlər, xanlığın Azərbaycan tarixində oynadığı rol barədə müfəssəl məlumatlar əksini tapıb. Kitabda İrəvan xanlığının tarixindən bəhs edən foto və rəsm əsərləri, Gürcüstan Milli Muzeyində saxlanılan nadir eksponatların şəkilləri yer alıb.

Daha sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında olub



Mayın 27-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının tələbələri Milli Onkologiya Mərkəzinin Uşaq Klinikasında olublar.



AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva və akademiyanın tələbələri klinikada müalicə alan uşaqlarla görüşərək onlara rəsm çəkməyi öyrədiblər.

Leyla Əliyevanın, Rəssamlıq Akademiyasının tələbələrinin bu təşəbbüsü, uşaqlarla birlikdə rəsm çəkmələri balacalar üçün əsl sürpriz olub. Bu, ağır xəstəlikdən əziyyət çəkən uşaqların əhvali-ruhiyyəsini yüksəldib.

# “Yoqa və düşüncənin gücü” adlı kitabın təqdimatı keçirilib





Bakı Kitab Mərkəzində hindistanlı guru, mistik və yoq Svami Şivanandanın Azərbaycan dilinə tərcümə olunmuş “Yoqa və düşüncənin gücü” adlı kitabının təqdimatı keçirilib.



AZƏRTAC xəbər verir ki, layihənin təşəbbüskarı, ideya müəllifi və ön sözün müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevadır.

Tədbiri Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva açaraq kitabın əhəmiyyəti haqqında danışıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın da iştirak etdiyi mərasimin aparıcısı əməkdar artist Nərgiz Cəlilova çıxışçıları qonaqlara təqdim edib.

Tədbirdə çıxış edənlər - M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının Psixologiya fakültəsinin dekan müavini, Respublika Humanist Pedaqogika Mərkəzinin rəhbəri Riza Xəlilov, Hindistanın Azərbaycandakı səfiri Bavitlunq Vanlalvavna, ənənəvi Svami Şivananda Yoqa Məktəbinin nümayəndəsi Elçin Quliyev yoqa fəlsəfəsindən, faydasından, yoqa ilə məşğul olan insanın qidalanmasından, düzgün həyat tərzindən, yoqanın xəstəlikləri müalicə etmək metodlarından danışıblar.

Təqdimatın bədii hissəsində müğənni Rinat Alimov sanskritcə mantra (dua) ifa edib. Rəqqasə Səidə Əliyevanın ifasında hind rəqsləri, Elçin Quliyevin tələbələrinin ifasında yoqa və nəfəs hərəkətləri təqdim olunub.

Svami Şivananda İlahi Yaşam Cəmiyyətinin banisidir. O, yoqa və vedanta təliminin təbliğatçısı və mənəvi ustadıdır. Oxuculara təqdim edilən “Yoqa və düşüncənin gücü” adlı kitab yoqa fəlsəfəsi və təcrübəsinin müxtəlif aspektlərini əks etdirir. Bu kitab dünyanın bir çox dillərinə tərcümə olunub və mənəvi irs tarixində nüfuzlu yer tutur. Kitabda oxucular yoqanın faydaları, yoqa pəhrizi, şüurun idarə olunması, müxtəlifliyi, düşüncənin idarə edilməsinin pozitiv metodları, düşüncə gücünün əhəmiyyəti, müxtəlifliyi, inkişaf dinamikası və tətbiqi kimi mövzularla tanış ola biləcəklər.

Yoqa adətən min illər öncə yaranan və kökü Hindistan fəlsəfəsinə dayanan əbədi ənənə kimi qəbul edilir. Yoqa ilə məşğul olan insanın tədricən qidalanma rejimi müsbət tərəfə doğru dəyişir. Yoqa insana düzgün həyat tərzi və standartları aşılayır.

# Minskdə keçiriləcək II Avropa Oyunlarının mədəni proqramına “Azərbaycan gecəsi” ilə start veriləcək

İyunun 21-30-da Minskdə keçiriləcək II Avropa Oyunlarında Azərbaycanı 80 idmançı təmsil edəcək. Azərbaycan nümayəndə heyəti ümumilikdə 170 nəfərdən ibarət olacaq.

AZƏRTAC xəbər verir ki, bunu mayın 27-də təşkil olunan mətbuat konfransında Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti Çingiz Hüseynzadə deyib.

Vitse-prezident bildirib ki, komandada 32 məşqçi, 15 inzibati heyət üzvü və 5 tibb işçisi yer alacaq. İdmançılar arasında güləşçilər üstünlük təşkil edirlər.

“II Avropa Oyunlarında 4 min idmançı iştirak edəcək. Atletlər 200 dəst medal uğrunda mübarizə aparacaqlar. Kişilər üçün 91, qadınlar üçün 89, qarışıq 20 yarış keçiriləcək. “Minsk 2019” II Avropa Oyunları idmanın 15 növü üzrə yarışlara evsahibliyi edəcək. Azərbaycan atletləri bu yarışlarda idmanın 10 növü üzrə mübarizə aparacaqlar”, - deyə Ç.Hüseynzadə bildirib.

Oyunların açılış mərasiminin iyunun 21-də, bağlanış mərasiminin isə ayın 30-da “Dinamo” stadionunda keçiriləcəyini deyən MOK rəsmisi vurğulayıb ki, yarışlar 12 idman obyektində baş tutacaq. İdmançılar tələbə şəhərciyi olan və Oyunlar üçün yenidən hazırlanmış Atletlər kəndində qalacaqlar. Tutumu 6500 yerlik olan Atletlər kəndi mayın 1-dən fəaliyyətə başlayıb. II Avropa Oyunlarında Azərbaycanı təmsil edəcək “Ulduz səfir” tituluna əməkdar artist Tünzalə Ağayeva layiq görülüb.

Bakıda təşkil olunan ilk Avropa Oyunlarında qazanılan nəticənin təkrarlanmasının olduqca çətin olduğunu deyən Ç.Hüseynzadə güləş, boks, cüdo və karate yarışlarında daha çox medal gözlədiklərini diqqətə çatdırıb: “Proqnoz vermək çətindir. Çalışacağıq ki, medallarımızın sayı kifayət qədər olsun. Bu Oyunların “Tokio 2020”nin heyətinin müəyyənləşməsində böyük rolu olacaq. Əlimizdən gələni edəcəyik ki, ümumi hesabda ilk onluqda yer alaq”.

Minskdə idman obyektlərinin bir-birinə yaxınlığını müsbət dəyərləndirən MOK rəsmisi nəqliyyatla bağlı müəyyən problemlərin mövcudluğundan xəbərdar olduğunu vurğulayıb. Ç.Hüseynzadə bildirib ki, II Avropa Oyunlarının mədəni proqramına iyunun 20-də keçiriləcək “Azərbaycan gecəsi” ilə start veriləcək. Bu, Avropa Oyunlarının ilk dəfə ölkəmizdə təşkilini təcəssüm etdirir. Həmin gün yalnız Azərbaycan pavilyonu fəaliyyət göstərəcək. Digər günlərdə isə başqa ölkələrin gecələri keçiriləcək.

MOK-un baş katibi, Azərbaycan Boks Federasiyasının birinci vitse-prezidenti Ağacan Abiyev turnirə qatılacaq 11 boksçumuzun II Avropa Oyunlarında dörd medal qazana biləcəklərini proqnozlaşdırıb: “Bu gün boksçularımızın gücünə baxanda 1 qızıl, 1 gümüş və 2 bürünc medal qazanacaqlarını proqnozlaşdırıram”.

Qeyd edək ki, I Avropa Oyunları 2015-ci ildə Azərbaycanda təşkil olunub. “Bakı-2015”də Azərbaycan idmançıları 56 medal (21-15-20) qazanaraq komanda hesabında Rusiyadan sonra ikinci pillədə yer alıblar.

SOCAR
SOCAR PETROLEUM QSC
xalqımızı
Respublika Günü
münasibətilə təbrik edir, sülh, əmin-amanlıq, xoş gələcək arzulayır!


Bayramınız mübarək!

Günay Bank
Azərbaycan xalqını
Respublika
Günü
münasibətilə təbrik edir


# "Sərhəd" hərbi-idman oyunlarının qalibləri mükafatlandırılıb





Dövlət Sərhəd Xidməti (DSX) sərhədlərimizin etibarlı mühafizəsini təmin etməklə yanaşı, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi istiqamətində mühüm tədbirlər həyata keçirir. Bu tədbirlər arasında xüsusi yer tutan və artıq ənənəyə çevrilmiş "Sərhəd" hərbi-idman oyunları DSX-nin, Təhsil, Gənclər və İdman nazirliklərinin birgə tədbirlər planı əsasında reallaşdırılır. Bu oyunlar gənc nəslin ulu öndər Heydər Əliyevin dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyə olunmasında, vətənə, onun sərhədlərinə məhəbbət hissinin aşılanmasında, gənclərdə sərhədçi peşəsinə marağın artırılmasında böyük rol oynayır.



Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyinə həsr olunmuş və üç mərhələdə keçirilən hərbi idman oyunlarında bu il 36 sərhədyanı və digər rayonun 207 məktəbindən 1035 şagird iştirak edib. İlk iki mərhələnin yekunlarına görə 10 komanda - Naxçıvan şəhərinin 9, Astara şəhərinin 2, Mingəçevir şəhərinin İ.Qayıbov adına 10, Siyəzən şəhərinin 1 nömrəli, Beyləqan rayonunun Araz qəsəbəsinin F.Miriyev adına, Cəlilabad rayonunun Ləkin, Xaçmaz rayonunun Gödəkli, Oğuz rayonunun Muxas, Zaqatala rayonunun Muğanlı, Şəmkir rayonu Çaparlı kənd tam orta məktəblərinin komandaları finala vəsiqə qazanıblar.

Oyunların final mərhələsi mayın 18-dən 24-dək DSX-nin Sərhəd Qoşunlarının Lənkəran sərhəd dəstəsinin Astara sərhəd komendantlığında keçirilib. İştirakçılar üçün yaradılmış şərait məktəblilərə öz bacarıqlarını tam və sərbəst şəkildə nümayiş etdirməyə imkan verib.

Final mərhələsində komandalar "Sərhəd pozucusunun yaxalanması və onun təxliyə edilməsi", "Ləpirçilik", "Sərhəd naryadı tərəfindən nəqliyyat vasitəsinə baxışın keçirilməsi", "Maskalanma", "Yaralanmış sərhəd naryadına ilkin tibbi yardımın göstərilməsi və onun təxliyə olunması", "Avtomatın sökülməsi və yığılması", "Tüfəngdən hədəfə atəş açmaq" və "Sıra hazırlığı" üzrə bilik və bacarıqlarını nümayiş etdiriblər.

Hərbi-idman oyununun keçirildiyi günlərdə məktəblilər hərbi hissədə yaradılmış şəraitlə tanış olub, onlar üçün bir sıra maraqlı ekskursiyalar təşkil edilib, çoxsaylı mədəni-kütləvi tədbirlər, bilik və idman yarışları keçirilib.

Final mərhələsinin yekunlarına görə Beyləqan rayonunun Araz qəsəbəsinin F.Miriyev adına tam orta məktəbinin "Araz" komandası birinci, Siyəzən şəhərinin 1 nömrəli tam orta məktəbinin "Sərhədçi" komandası ikinci, Cəlilabad rayonunun Ləkin kənd tam orta məktəbinin "Ləkin" komandası isə üçüncü yeri tutublar.

"Sərhəd" hərbi-idman oyunlarının yekunlarına həsr olunmuş təntənəli tədbir Dövlət Sərhəd Xidmətinin Lənkəran sərhəd dəstəsində keçirilib. Tədbirdə Dövlət Sərhəd Xidmətinin, Gənclər və İdman və Təhsil nazirliklərinin nümayəndələri qalib komandaları təbrik edərək bu oyunların gənclərin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynadığını vurğulayıblar.

Tədbirdə "Sərhəd" hərbi-idman oyununun qalibləri kubok, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

***"Azərbaycan"***

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Respublika Günü
münasibətilə təbrik edir, hər bir ailəyə sevinc dolu günlər arzulayır!

AZPETROL

"Azpetrol" şirkəti
Azərbaycan xalqını
28 May - Respublika Günü
münasibətilə təbrik edir. Şirkət xalqımıza sülh, birlik, xoşbəxtlik, əmin-amanlıq, yüksək rifah, xoş gələcək və firavan həyat arzulayır!



# Heydər Əliyev Fondu Gəncədəki İmamzadə ziyarətgahında iftar süfrəsi açmışdır

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Gəncədəki İmamzadə ziyarətgahında iftar süfrəsi açılmışdır.



İftar süfrəsində Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək möminləri ramazan ayı münasibətilə təbrik edərək demişdir ki, 11 ayın sultanı hesab edilən ramazan dostluq, qardaşlıq, həmrəylik ayıdır. Ölkə ərazisində olan dini məbədlərin təmir və bərpasına, islami və milli-mənəvi dəyərlərin qorunmasına diqqət çəkən icra hakimiyyəti başçısı Azərbaycanın dünya ölkələri üçün tolerantlıq nümunəsi olduğunu diqqətə çatdırmışdır.

Türkiyənin Gəncədəki Baş konsulu Zəki Öztürk ramazan ayının yüksək humanizm ideyalarını özündə ehtiva etməsindən söz açıb. O qeyd edib ki, ramazan islamın ən şəfqətli və müqəddəs ayı hesab olunur. Bu ayda imkansız və kimsəsizlərə yardım göstərmək, dayaq olmaq, bayram sevincini birgə yaşamaq vacib əməllərdəndir.

Qafqaz Müsəlmanları İdarəsinin qərb bölgəsi üzrə nümayəndəsi Hacı Tahir Abbasov deyib ki, müqəddəs ramazan ayı insanın əxlaqi davranışını tənzimləyir, qeybətdən, yalandan çəkindirir. Bu cür tərbiyəvi məziyyətlərinə görə də ramazan ayına 11 ayın sultanı deyirlər.

İftar süfrəsi ətrafında on bir ayın sultanı olan ramazanın fəzilətlərindən danışılıb, bu ayda görülməsi vacib sayılan xeyirxah əməllərdən, savab işlərdən söz açılıb. Ölkəmizə əmin-amanlıq və sülh arzulanıb. Torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların ruhlarına dualar oxunub.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Səninlə fəxr edirik, Azərbaycan əsgəri!

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşəbbüsü və təşkilatçılığı ilə respublikamızın qərb bölgəsində "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasına start verilib.



UNEC-in rektoru, iqtisad elmləri doktoru, professor Ədalət Muradovun rəhbərliyi ilə professor-müəllim və tələbələrdən ibarət ilk aksiya qrupu hərbi libas geyinərək iki gün cəbhəboyu bölgədə, ön xətt mövqelərində olaraq qarşılarına qoyduqları xeyirxah və nəcib vətənpərvərlik missiyasını layiqincə yerinə yetiriblər.

Aksiya iştirakçıları birliyin komandanlığı tərəfindən qarşılanıb. Əvvəlcə hərbi orkestrin ifa etdiyi milli marşların müşayiəti ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin qərargahın qarşısında bağçadakı büstü ziyarət olunub, qarşısına qızılgüllər düzülüb.

Aksiya iştirakçıları hərbi hissədə Heydər Əliyev Mərkəzi, eləcə də hərbi qulluqçular üçün yaradılmış yüksək xidmət, məişət şəraiti, hərbi qulluqçuların problem və qayğıları ilə maraqlanıb, nizam-intizamın, şəxsi heyətin döyüş ruhunun, vətənpərvərlik hissinin, mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olmasının bir daha şahidi olublar.

Əsgər klubunda Azərbaycan Ordusuna dəstək aksiyasının açılışına həsr olunmuş mərasimdə qrupu müşayiət edən əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani, general-mayor Xəqani Cəbrayılov Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində son illərdə qazanılmış uğur və nailiyyətlərdən geniş söhbət açıblar. Qeyd edilib ki, UNEC-in bu təşəbbüsü təqdirəlayiqdir və bütün ali məktəblərin, idarə və təşkilatların kollektivləri də bu aksiyaya qoşulmalıdırlar. Müharibə şəraitində yaşayan bir məmləkətin hər bir vətəndaşından barıt qoxusu gəlməli, bütün cəmiyyət vətənpərvərlik hissi ilə yaşamalı, "Hər şey ordu üçün, hər şey Qələbə üçün!" şüarı ölkəni əhatə etməlidir.

Rektor, professor Ədalət Muradov UNEC-in iyirmi min nəfərlik böyük kollektivi adından şəxsi heyəti 28 May Respublika Günü və qarşıdan gələn Ramazan bayramı münasibətilə ürəkdən salamlayıb, hər bir döyüşçüyə bundan sonra da vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etməyi, hərb tariximizə Aprel və Günnüt zəfərlərinin davamı olacaq yeni-yeni şanlı səhifələr yazmağı arzulayıb.

Professor torpaqlarımızın işğaldan azad edilməsi, respublikamızın ərazi bütövlüyünün bərpa olunması uğrunda UNEC-in kollektivinin də müsəlləh əsgər kimi hər bir əmrə müntəzir olduğunu diqqətə çatdırıb.

Sonra "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" adlı konsert proqramı təqdim edilib. "Biz gəlirik, Qarabağ" ədəbi-bədii kompozisiyası ilə Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının açılışına həsr olunmuş mərasim başa çatıb.

Həmin axşam aksiya iştirakçıları şəxsi heyətlə birlikdə şam yeməyində iştirak edib, rəmzi döyüş növbəsində dayanıb, əsgər yataqxanasında gecələyiblər.

Aksiyanın ikinci günü cəbhəyanı bölgədə, hərbi hissələrin dayaq məntəqələrində, ön xətt mövqelərində silsilə tədbirlər keçirilib. Döyüşçülərə UNEC-in professor-müəllim və tələbə heyətinin Azərbaycan əsgərinə müraciəti dərc olunmuş kitabçalar təqdim olunub. Rektor professor Ədalət Muradov, Rövnəq Rzayev, Aqil Əzizov, Elçin Səmədov, Fərhad Mikayılov, Şamil Əliyev, eləcə də təhsildə və ictimai işlərdə fəallıq göstərən tələbələr əsgərlər qarşısında çıxış edib, səmimi söhbət aparıb, onları maraqlandıran sualları cavablandırıblar.

Hərbi xidmətdə fərqlənən əsgər və zabitlərə UNEC-in təsis etdiyi xüsusi mükafatlar, hədiyyələr təqdim olunub.

Azərbaycan Ordusuna mənəvi dəstək aksiyasının ilk qrupunun rəhbəri professor Ədalət Muradov cəbhəboyu bölgədən ayrılarkən döyüşçülər qarşısında çıxışını Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dediyi fikirlərlə tamamlayıb: "Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sirasındadır... Ordumuzun maddi-texniki bazası böyük dərəcədə möhkəmlənmişdir... Döyüş qabiliyyəti ən yüksək səviyyədədir... Ruh yüksəkliyi var. Ordumuzun, əsgərlərimizin, zabitlərimizin mənəvi-psixoloji durumu çox yüksəkdir. Nəinki orduda, bütün cəmiyyətdə vətənpərvərlik hissi yüksəkdir. Bütün cəmiyyət vahid amal uğrunda birləşib".

UNEC-in təşəbbüsü ilə "Səninlə fəxr edirik, Azərbaycan əsgəri!" devizi altında keçirilən Azərbaycan Ordusuna mənəvi dəstək aksiyası 26 iyun - Silahlı Qüvvələr gününədək birlik, birləşmə, hərbi hissə və xüsusi təyinatlı təhsil müəssisələrində, eləcə də universitetdə davam etdiriləcək.

***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini 23 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub. Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Şıxlar, Yusifcanlı, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# İsveçdə Respublika Günü münasibətilə konsert təşkil olunub





İsveçdə fəaliyyət göstərən İsveç-Azərbaycan Dərnəyi (SAF) 28 May - Respublika Günü münasibətilə Stokholmda konsert təşkil edib.

AZƏRTAC xəbər verir ki, Stokholmdakı Azərbaycan səfirliyinin əməkdaşları, Azərbaycan və türk diasporunun, KİV nümayəndələrinin də qatıldığı tədbir digər ölkələrin diaspor nümayəndələrinin və yerli ictimaiyyətin də böyük marağına səbəb olub.

Konsertdə bu ölkədə yaşayan azərbaycanlı uşaqlarla yanaşı, İsveç, Türkiyə, Belarus, Fransa, Estoniya və Danimarkanı təmsil edən müxtəlif musiqi və rəqs qrupları da iştirak edib.



Konsertin aparıcısı tədbirin mahiyyətindən söz açaraq qeyd edib ki, konsert Azərbaycan Xalq Cümhuriyyətinin 101 illiyinə həsr olunub.

Azərbaycanın milli rəqsləri ilə başlayan konsertdə İsveç-Azərbaycan Dərnəyinin "Qarabağ" adlı uşaq rəqs qrupu tədbir iştirakçılarına təqdim olunub. Bildirilib ki, Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ uzun illərdir işğal edilib. Bu torpaqlarda yaşamış minlərlə balaca heç bir uşağın layiq olmadığı məhrumiyyətləri və əzabları yaşamağa məcbur olub. Buna görə də uşaq rəqs qrupunun adı "Qarabağ" qoyulub.

Sonra "Qarabağ" rəqs qrupu "Naz eləmə", "Şuşa", "Uzundərə" və "Nəlbəki" rəqslərimizi nümayiş etdirib.

İsveçli və azərbaycanlı uşaqların "Azərbaycan", "Sarı gəlin", "Şən Azərbaycan" mahnılarını birgə ifa etmələri isə böyük marağa səbəb olub.

Qeyd edək ki, tədbir çərçivəsində İsveçdə yaşayan həmyerlimiz Minaya Əzizbəyovanın dekupaj stilində əl işləri və dekorativ tətbiqi sənət ustası, rəssam Kəmalə Kərimova-Yansonun Azərbaycanın milli qadın geyimlərindən ibarət əl işlərinin sərgisi də nümayiş olunub.

# Bakının enerji etibarlılığı artırılib

## "Azərenerji" birbaşa Şirvan şəhərindən çəkilən yüksəkgərginlikli xətti istismara verib

"Azərenerji" ASC Bakı şəhərinin elektrik enerji təchizatının etibarlılığı və dayanıqlığını gücləndirmək üçün Şirvan şəhərindəki "Cənub" Elektrik Stansiyasından "Xırdalan" yarımstansiyasına 330 kV-luq bazada çəkdiyi 220 kV-luq yüksək gərginlikli elektrik verilişi xəttində işləri yekunlaşdıraraq istismara verib.




Yeni xəttin çəkilməsi paytaxtın enerji xəttinin etibarlılığını daha da artırıb. Belə ki, indi Mingəçevir və ya Səngəçaldakı elektrik stansiyalarından qidalanaraq şəhərə daxil olan yüksəkgərginlikli xətlərdə problem yaranarsa, Şirvan şəhərindəki "Cənub" Elektrik Stansiyasından birbaşa çəkilən yeni xətt Bakı və Abşeron yarmadasının enerji təchizatında mühüm rol oynayacaq. Bundan əlavə, yeni xətt istismara verildiyinə görə şəhərə daxil olan digər yüksəkgərginlikli xətləri açmaq və yükü digər xəttin üzərinə keçirməklə şəhərə verilən enerjini dayandırmadan onların üzərində təmir-bərpa işləri aparmaq mümkün olacaq.

Qeyd edək ki, ikidövrəli olmaqla 108 km məsafədə, 330 kV-luq dayaqlarla çəkilən 220 kV-luq "Cənub-Xırdalan" hava xətti gələcəkdə 330 kV-luq gərginlik sinfinə keçiriləcək.

***"Azərbaycan"***

NORM
ƏSL SEMENT

Dövlətçilik tariximizə ən şərəfli günlərdən biri kimi daxil olan

28 May – Respublika günü

münasibətilə Sizi təbrik edir, ölkəmizin tərəqqisi və xalqımızın rifahı naminə göstərdiyiniz xidmətlərdə Sizə uğurlar arzulayırıq!

www.norm.az

*İstiqlal Bəyannaməsi*

*1. Bu gündən etibarən Azərbaycan xəlqi hakimiyyət həqqinə malik olduğu kibi Cənubi-Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil-əl-hüquq müstəqil bir dövlətdir.*
*2. Müstəqil Azərbaycan dövlətinin şəkili-idarəsi Xalq Cümhuriyyəti olaraq təqarrür ediyor.*
*3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilxassə həmcüvar olduğu millət və dövlətlərlə münasibəti – həsənə təsisinə əzm edər.*
*4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrəvində yaşayan bütün vətəndaşlarına hüquqi-siyasiyyə və vətəniyyə təmin edər.*
*5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bil cümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır.*
*6. Məclisi-Müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında arai-ümumiyyə ilə intixab olunmuş Şurai Milli və Şurai-Milliyə qarşı məsul hökuməti-müvəqqəti durur.*

# Bakıda London derbisi

## Sabah paytaxtımız UEFA Avropa Liqasının final matçının şahidi olacaq

Avropa futbolunun böyük həyəcanla gözlədiyi gün gəlib çatdı. Sabah Bakı qitənin nüfuzlu klub turnirlərindən olan UEFA Avropa Liqasının finalına evsahibliyi edəcək.




Bakı Olimpiya Stadionunda keçiriləcək həlledici matçda İngiltərənin "Çelsi" və "Arsenal" komandaları üz-üzə gələcək. Yerli vaxtla saat 23:00-da başlayacaq London derbisi arenada toplaşacaq on minlərlə azarkeşə əsl futbol festivalı yaşadacaq. Həlledici qarşılaşmada qalib gələn komanda gələn mövsüm UEFA Çempionlar Liqasının qrup mərhələsinə vəsiqə qazanacaq.

Xatırladaq ki, Avroliqanın finalının 2019-cu ildə Bakıda keçirilməsi haqqında qərar UEFA İcraiyyə Komitəsinin 20 sentyabr 2017-ci il tarixli iclasında verilib. Azərbaycan Prezidenti İlham Əliyev 7 may 2018-ci ildə final matçının paytaxtımızda keçirilməsi ilə əlaqədar təşkilat komitəsinin yaradılması haqqında sərəncam imzalayıb. Final oyununu tələb olunan səviyyədə keçirmək üçün yerli təşkilat komitəsi nəzərdə tutulan bütün işləri vaxtlı-vaxtında icra edib, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirib.

Artıq bir neçə gündür Bakı qonaq-qaralıdır. Ölkəmizə gəlmiş azarkeşlər həlledici matçın ən müasir arenada keçirildiyini qeyd etməklə yanaşı, Azərbaycan xalqının səmimiliyinə və qonaqpərvərliyinə, Bakının və bütövlükdə ölkənin sürətli inkişafına heyran qaldıqlarını bildirirlər.

Final görüşü ilə əlaqədar reallaşdırılan silsilə tədbirlər çərçivəsində Dənizkənarı Milli Parkda azarkeş festivalı keçirilir. Avroliqanın kubokunun nümayiş olunduğu festivalda məşhur futbolçular - İngiltərə millisinin sabiq hücumçusu Maykl Ouen və İtaliya yığmasının keçmiş qapıçısı Françesko Toldo da iştirak edirlər.

Festivala böyük maraq göstərən şəhər ictimaiyyətinin nümayəndələri, futbol həvəskarları Avroliqanın kuboku və tanınmış futbolçularla xatirə şəkilləri çəkdirirlər. Azərbaycanın ən yaxşı DJ-ləri, musiqi qrupları və incəsənət ustaları rəngarəng çıxışları ilə festival iştirakçılarına xoş anlar yaşadırlar.

... Bəli, Avropanın futbolla bu və ya digər dərəcədə əlaqəli olan dairələri finaldan danışır, matçın paytaxtımızda baş tutmasından razılıq hissi keçirirlər. Təşkil olunacaq final oyunu barədə susanlar isə yalnız "Köhnə dünya"nın siyasi dairələrinin nümayəndələridir. Susqunluğun səbəbi də məlumdur: Avropa siyasəti bundan dörd il öncə "Bakı-2015" I Avropa Oyunlarının timsalında qitə idmanı ilə mübarizəyə girişmiş, amma məğlubiyyətə uğramışdır! Siyasət idmanı yerində oturtmağa çalışmış, ancaq idman siyasətə yerini göstərmişdir!

Doğrudur, siyasətin idmana qarışması yeni fakt deyil. İrimiqyaslı idman tədbirləri ərəfəsində xarici bədnam qüvvələr bəyənmədiyi ayrı-ayrı təşkilatçı ölkələrə insan hüquqlarını bəhanə gətirərək təzyiq göstərməyə cəhd edir. Son hadisələr qarayaxma kampaniyasının uğursuzluqla nəticələndiyini və bədxahların susmaqdan başqa çarəsi qalmadığını növbəti dəfə nümayiş etdirdi.

Avroliqanın final matçında start fitinin çalınmasına az qalır. Futbolçulara və azarkeşlərə uğurlar arzulayırıq. Oyunçu aparsın!

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Bakıda aerobika gimnastikası üzrə 11-ci Avropa çempionatına yekun vurulub

Bakıda aerobika gimnastikası üzrə XI Avropa çempionatına mayın 26-da yekun vurulub.

AZƏRTAC xəbər verir ki, çempionatın sonuncu - üçüncü günündə əvvəlcə gənc gimnastlar mübarizə aparıblar. Gimnastlar fərdi qadın və kişi, qarışıq cütlüklər, üçlüklər, qrup, aerodans proqramlarında medallar uğrunda yarışıblar.



Yekun nəticələrə görə gənclər arasında fərdi qadın proqramında Rusiya təmsilçisi Anastasiya Dmitriyeva 20,700 xal toplayaraq qızıl medal qazanıb. İkinci yeri 20,550 xalla Rusiyanın digər gimnastı Darya Tixonova tutub. Üçüncü yerə isə 20,550 xalla ukraynalı gimnast Anastasiya Kuraşvili layiq görülüb.

Gənc gimnastların fərdi kişi proqramında Rusiya gimnastı Anton Kolobov 21,100 xalla fəxri kürsünün birinci pilləsinə yüksəlib. İspaniyalı Migel Mane Qabarro (20,900 xal) gümüş, rumıniyalı Daniel Tavok (20,550) bürünc medal qazanıblar.

Gənclər arasında qarışıq cütlük proqramında isə fəxri kürsünün ilk pilləsini italiyalı gimnastlar tutublar (Andrea Kolnaqo və Eliza Marras, 20,050). İkinci yerə Rusiya gimnastları (Damir Manafov və Kseniya Stefu, 20,050) layiq görülüblər. Üçüncü pilləni isə Rumıniyadan olan cütlük tutub (Darius Avqustin Branda və Andrea-Selena Sotanqa, 19,900).

Sonra gənclər arasında aerodans, üçlük və qrup proqramlarında finallar keçirilib.

Aerodans proqramında çıxış edən gənclərdən ibarət Azərbaycan komandası (Aysel Aslanzadə, Xədicə Quliyeva, Lalə Quliyeva, Fatimə Qurbanova, Emiliya Mahmudova və Eleonora Yusifova) 16,225 xalla yeddinci pillədə qərarlaşıb. Bu proqramda Rusiya komandası 17,700 xalla birinci yerə layiq görülüb. Rumıniya komandası ikinci (17, 350), Macarıstan yığması (17,200) üçüncü yeri tutub. Üçlük proqramında fəxri kürsünün birinci pilləsinə "Rusiya-2" komandası çıxıb (20,100). İkinci və üçüncü pillələrdə müvafiq olaraq, "Rumıniya-2" (19,950 xal) və "Rusiya-1" (19,550) komandaları qərarlaşıblar. Rusiya gimnastları qrup yarışlarında da ilk pillədə yer alıblar (20,050). Sonrakı yerləri İtaliya (19,600) və Macarıstan (19,600) idmançıları tutublar.

Böyüklər arasında aerostep, kişi və qadın fərdi proqramı, qarışıq cütlük, qrup, aerodans, üçlük proqramlarında yarışlar da maraqlı mübarizə şəraitində keçib. Rusiyalı gimnastlar aerostep proqramında 17,700 xalla birinci, Ukrayna təmsilçiləri 16,400 xalla ikinci olublar. Qadınların fərdi proqramında Rusiya təmsilçisi Yekaterina Pıxtova (21,350) birinci yeri tutub. İkinci yerə Rusiyanın digər təmsilçisi Tatyana Konakova (21,350) və Bolqarıstan gimnastı Darina Paşova (21,200) layiq görülüblər. Kişilərin fərdi proqramında Roman Semyonov (22,150), Timur Kulayev (Rusiya, 21,650) və Antonio Papazov (Bolqarıstan, 21,300) ilk üç yerə sahib olublar.

Qarışıq cütlüklərin yarışında isə macarıstanlı Bali Daniel və Fanni Mazas cütlüyü qalib olub (22,300). Sonrakı iki yeri Mehmet Erkoş və Ayse Bequm (Türkiyə, 21,900), Dasian Barna və Andrea Boqati (Rumıniya, 21,750) cütlükləri tutublar. Aerodans proqramında isə Azərbaycan komandası (Elçin Məmmədov, Ayxan Əhmədli, Balaxanım Əhmədova, Nərminə Hüseynova, Nigar İbrahimbəyli, İmran İmranov, Akif Kərimli və Mədinə Mustafayeva) 17,800 xalla fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Rusiya komandası 17,750 xalla ikinci, Rumıniya yığması 17,400 xalla üçüncü olub.

Üçlüklərin mübarizəsində macarıstanlı gimnastlar (Bali Daniel, Fanni Mazas, Balats Farkaş) 22,441 xalla birinci olublar. İkinci yeri 22,366 xalla rusiyalı idmançılar (Yekaterina Pıxtova, Yelena İvanova, Anastasiya Zyubina) tutublar. Üçüncü yerə isə 21,133 xalla Rumıniya təmsilçiləri (Andrea Boqati, Dorin Brotei, Mixay Popa) layiq görülüblər. Qrup proqramında Azərbaycan komandası 19,738 xalla beşinci pillədə qərarlaşıb. Bu növdə Rumıniya 22,233 xalla birinci, Bolqarıstan 22,111 xalla ikinci, Rusiya isə 22,100 xalla üçüncü olub.

Yarışlar başa çatdıqdan sonra mükafatlandırma mərasimi təşkil edilib.

Bununla da aerobika üzrə 11-ci Avropa çempionatına yekun vurulub. Qitə çempionatında 22 ölkədən 400-ə yaxın gimnast qüvvəsini sınayıb.

# Britaniyanın Azərbaycandakı səfiri UEFA Avropa Liqasının final qarşılaşması ilə əlaqədar mətbuat konfransı keçirib

Azərbaycan beynəlxalq tədbirlərin keçirilməsində kifayət qədər geniş təcrübəyə malikdir. Britaniyanın Bakıdakı səfirliyi Azərbaycan hökuməti, hər iki ölkənin futbol federasiyaları, klubları ilə fəal əməkdaşlıq edir və bu sahədə çox işlər görülüb. UEFA Avropa Liqasının final qarşılaşması ilə əlaqədar səfirlik Bakıya gələcək ingilis azarkeşlər üçün lazımi məlumatların olduğu xüsusi broşür hazırlayıb.

AZƏRTAC xəbər verir ki, bunu Böyük Britaniyanın Azərbaycandakı səfiri xanım Kerol Krofts UEFA Avropa Liqasının Bakıda keçiriləcək final qarşılaşması ilə əlaqədar mayın 27-də təşkil etdiyi mətbuat konfransında deyib.

28 May - Respublika Günü münasibətilə Azərbaycan xalqını təbrik edən diplomat ölkələrimiz arasında idman sahəsində əlaqələrdən danışarkən Bakıda keçiriləcək final oyununun əhəmiyyətini xüsusi qeyd edib. Kerol Krofts futbol üzrə İngiltərə millisinin 1966-cı ildə azərbaycanlı yan xətt hakimi Tofiq Bəhramovun düzgün qərarı sayəsində tarixində ilk dəfə dünya çempionu olduğunu bildirərək deyib: "Böyük Britaniya-Azərbaycan futbol əlaqələri barədə danışarkən ilk ağla gələn Tofiq Bəhramovdur. 1966-cı ildə keçirilən dünya çempionatının ildönümü ilə əlaqədar 2016-cı ildə biz Tofiq Bəhramovun ailəsini ziyarət etdik. Tofiq Bəhramovun ailəsi bizə onun arxivindən fotoşəkillər təqdim etdi. Həmin fotoşəkillər Azərbaycan ilə Böyük Britaniya arasında yüksəksəviyyəli əlaqələrin rəmzlərindən biridir. Həmin il Tofiq Bəhramovun ailəsi Kraliça II Elizabetin doğum günü məclisinə dəvət edilib və orada onlara Tofiq Bəhramovun tarixi oyunda geyindiyi forma təqdim olunub".

Səfir Böyük Britaniya vətəndaşlarının Azərbaycana təkcə futbol matçlarında deyil, "Formula-1", cüdo və idmanın digər növləri üzrə keçirilən idman yarışlarını izləmək üçün də səfər etdiklərini bildirib. Ölkəmizdə Birləşmiş Krallığın 500-dək şirkətinin fəaliyyət göstərdiyini və Britaniya icmasının mövcudluğunu qeyd edən diplomat bildirib ki, UEFA Avropa Liqasının "Arsenal" və "Çelsi" klubları arasında oynanılacaq final qarşılaşması ilə əlaqədar səfirlik AFFA və Azərbaycan hökuməti, eləcə də Britaniya polisi ilə sıx əməkdaşlıq edir. Səfirlik daha çox Britaniya vətəndaşının final oyununu izləmək üçün Bakıya gəlməsinə çalışır. O, final yarışı günü bir neçə çarter reysi ilə azarkeşlərin Bakıya gələcəklərini bildirib.

Diplomat mayın 29-da "Arsenal" və "Çelsi" klubları arasında möhtəşəm final matçının oynanılacağına əminliyini bildirib.

Qeyd edək ki, UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün Londonun "Arsenal" və "Çelsi" klubları arasında oynanılacaq final qarşılaşması saat 23:00-da başlayacaq.

# UEFA-nın prezidenti Avroliqanın final oyununun keçirilməsi üçün niyə Bakını seçdiklərini açıqlayıb

UEFA-nın prezidenti Aleksander Çeferin Almaniyanın "Der Spiegel" jurnalına müsahibəsində Avroliqanın final oyununun keçirilməsi üçün niyə Bakını seçdiklərini açıqlayıb.

"Niyə? Çünki orada yaşayan insanlar futbolu sevirlər. Təkcə İngiltərə və Almaniyada deyil, hər yerdə futbolu inkişaf etdirməliyik. Bakıdakı azarkeşlər canlı futbol görmək istəyində haqlı deyillərmi?! Klublar birbaşa biletləri geri qaytarıblar, çünki hamısını sata bilməyiblər. Yeri gəlmişkən, mən asanlıqla uçuşlar üçün aviabiletlərin olduğunu söylədim. Lakin kimsə bu haqda danışmır. Həmişə UEFA günahkar kimi göstərilir. Bu populizmdir. Hər klubun səyahət edən azarkeşlərini dəstəkləmək üçün konstruktiv təklifi, yaxud fondu olur", - deyə Çeferin bildirib.

UEFA prezidenti qeyd edib ki, əlbəttə, Bakı Londondan uzaqdır, lakin yeri təyin edərkən finalda hər iki komandanın İngiltərədən olacağı bilinmirdi.

Çeferin erməni əsilli futbolçu Henrix Mxitaryanın təhlükəsizlik bəhanəsi ilə Bakıya gəlməməsinə də toxunub. "Azərbaycan hərtərəfli təhlükəsizlik planı və zəmanət təqdim etdi. Lakin gəlməmək oyunçunun öz qərarı idi", - deyə UEFA prezidenti vurğulayıb.

***AZƏRTAC***

## Dövlət Sosial Müdafiə Fondunun server avadanlıqlarına, fond tərəfindən həyata keçirilən elektron xidmətlərə, informasiya ehtiyatlarına və sistemlərinə dəstəyin göstərilməsi xidmətlərinin satın alınması ilə əlaqədar Dövlət Sosial Müdafiə Fondu

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir.**

**LOT 1** - Dövlət Sosial Müdafiə Fondunun server avadanlıqlarına, fond tərəfindən həyata keçirilən elektron xidmətlərə, informasiya ehtiyatlarına və sistemlərinə dəstəyin göstərilməsi xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu Bakı şəhəri, H.Zərdabi pr. 80 ünvanından ala bilərlər.

**İştirak haqqı: 1000 (bir min) manat**
**VÖEN (DSMF): 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN (DXA): 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**H/H: AZ46CTRE00000000000007018504**
**SWIFT BIK: CTREAZ22**

İştirak haqqı heç bir halda qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının vergi şəhadətnaməsinin və nizamnaməsinin təsdiq edilmiş surəti;*
- *iddiaçının bank rekvizitləri haqqında məlumat;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş mənfəət vergisi bəyannaməsinin surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *"Fərdi məlumatların informasiya ehtiyatlarının formalaşdırılması və informasiya sistemlərinin yaradılması, onlara xidmət göstərilməsi fəaliyyəti"nə dair lisenziyanın təsdiq edilmiş surəti;*
- *bənzər layihələr üzrə iş təcrübəsini təsdiq etmək üçün belə layihələrin həyata keçirildiyi ən azı 3 (üç) müəssisə və təşkilatdan tövsiyə məktubu;*
- *ixtisas uyğunluğunun müəyyənləşdirilməsi üçün sənədlər;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **08 iyul 2019-cu il saat 17:00-dək,** tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **16 iyul 2019-cu il saat 17:00-dək,** Bakı şəhəri, H.Zərdabi pr. 80 ünvanına təqdim etməlidirlər.

İddiaçıların təklifləri **17 iyul 2019-cu il saat 15:00-da** Bakı şəhəri, H.Zərdabi pr. 80 ünvanda Dövlət Sosial Müdafiə Fondunun Aparatında açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan"qəzetinin 18 aprel və 02 may 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına polietilen boru və fitinqlərin satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı **13 iyun 2019-cu il saat 16:00-a**, təkliflərin açılışı isə **14 iyun 2019-cu il saat 16:00-a** dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və satınalmaların idarəolunması departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Hikmət Qasımov (**hikmat.qasimov@azersu.az,** tel.: +99412 431-47-67 (2249).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Xalq qəzeti"nin 20 mart, 9 aprel və 7 may 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin mexaniki mal-materialların satın alınması məqsədilə dərc edilmiş tenderdə iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 03 iyun 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 04 iyun 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

Əlaqələndirici şəxs - Təchizat və Satınalmaların İdarəolunması Departamentinin satınalmaların təşkili şöbəsinin mühəndisi Ağaəli Mirzəyev (**agali.mirzeyev@azersu.az**, tel: 431-47-67/2246).

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Xalq qəzeti"nin 20 mart, 9 aprel və 7 may 2019-cu il tarixli nömrələrində "Azərsu" ASC-nin daxili vəsaiti hesabına elektrik mal-materialları və avadanlıqların 2 LOT üzrə LOT 1- Elektrik mal materialları və avadanlıqların və LOT 2 - Elektrik kabellərinin satın alınması məqsədilə dərc edilmiş tenderlərində iddiaçıların rəsmi müraciətlərinə əsasən tender təkliflərinin və təklif təminatlarının qəbulu vaxtı 10 iyun 2019-cu il saat 16:00-a, təkliflərin açılışı isə 11 iyun 2019-cu il saat 16:00-a dəyişdirilmişdir.

İddiaçılar "Azərsu" ASC-nin Təchizat və Satınalmaların İdarə Olunması Departamentinə (əlaqələndirici şəxs: Məmmədyar Musayev, tel: 431-47-67/2288, **mammadyar.musayev@azersu.az**) müraciət edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Qubadlı Rayon İcra Hakimiyyəti abadlaşdırma xidmətləri və təmir işlərinin görülməsi üçün

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcək:

**LOT-1.** Abadlaşdırma xidmətləri və təmir işlərinin görülməsi.

Tenderlə əlaqədar məlumat almaq istəyənlər əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Təyyar Eminov**
**Telefon: 018 654 38 68**
**Mobil: 050 286 39 69**
**Ünvan: Sumqayıt şəh., İnşaatçılar qəs., Kimyaçılar küç., 2.**

Tender üzrə bütün prosedurlar (yazışmalar, sənədləşmə və s.) Azərbaycan dilindədir.

Təkliflərin qiymətləndirilməsində aşağı qiymət, yüksək keyfiyyət, işin vaxtında yerinə yetirilməsi, tam şəkildə başa çatdırılması kimi meyarlara üstünlük veriləcəkdir.

**İştirakçının tender təklifi tender zərflərinin açıldığı gündən ən azı 30 bank günü ərzində qüvvədə olmalıdır.**

**İştirak haqqı 150 (bir yüz əlli) manatdır.**
**Qubadlı Rayon İcra Hakimiyyəti**
**VÖEN: 4600025881**
**Sumqayıt şəh., İnşaatçılar qəs., Kimyaçılar küç., 2**

**Turanbank ASC Sumqayıt filialı**
**Kodu: 508212**
**VÖEN: 1300016391**
**Müxbir hesabı:**
**AZ26NABZ01350100000000027944**
**SWIFT BIK: TURAAZ 22**
**Heşab № AZ85TURA36015002260700102944**
**VÖEN: 4600022691**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İştirakçılar tenderdə iştirak etmək üçün 01 iyul 2019-cu il saat 18:00-a qədər aşağıdakı sənədləri poçt vasitəsilə və ya şəxsən təqdim etməlidirlər:

- *tender prosedurunda iştirak etmək üçün yazılı müraciət (ərizə);*
- *iştirakçının son bir illik maliyyə vəziyyəti barədə bank arayışı;*
- *iştirakçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə (VÖEN) və kommersiya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış, ehtiyac olduqda lisenziya) surətləri;*
- *ərizə, tender təklifi və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iştirakçının potensial imkanlarının olması haqqında məlumat (müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar);*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair son vergi ilində təmin edilməmiş öhdəliklərin olub-olmaması haqqında arayış.*

Tender təklifi 2 nüsxədə (əsli və surəti) tender dəyərinin 1faizi həcmində bank təminatı ilə birlikdə 01 iyul 2019-cu il saat 18:00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə Sumqayıt şəhəri, İnşaatçılar qəs., Kimyaçılar küç., 2 ünvanında yerləşən Qubadlı Rayon İcra Hakimiyyətinin binasına təqdim edilməlidir.

İştirakçının tender zərfləri Qubadlı Rayon İcra Hakimiyyətinin binasında 02 iyul 2019-cu il saat 10:00-da açılacaqdır. İştirakçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 13.03.2019-cu il tarixdə elan edilmiş P-274 naqilinin satın alınması üzrə açıq tender prosedurunun qalibi "BAKİNİTY DİSTRİBUTİON" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "BAKİNİTY DİSTRİBUTİON" MMC arasında 139 594.00 (bir yüz otuz doqquz min beş yüz doxsan dörd manat 00 qəpik) manat dəyərində 23 may 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 15.03.2019-cu il tarixdə elan edilmiş Ethernet portlarının və ayrılmış internet kanallarının qoşulmasında istifadə etmək üçün mal-materialların satın alınması üzrə açıq tender prosedurunun qalibi "CUBE" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "CUBE" MMC arasında 40 916.81 (qırx min doqquz yüz on altı manat 81 qəpik) manat dəyərində 23 may 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı LOT-lar üzrə

### *açıq tender elan edir*

**LOT 1:** Nəqliyyatın izlənilməsi üçün GPS naviqasiya sisteminin satın alınması və tətbiqi.

**LOT 2:** Mərkəzi Bankın 2 nömrəli xəzinə saxlancının yerləşdiyi binanın, Biləsuvar və Yevlax ərazi idarələrinin daxili perimetr üzrə həyəcan siqnalizasiya sisteminin yenilənməsi.

**LOT 3:** Mərkəzi Bankın ərazi idarələrində buraxılış nəzarət sisteminin və video-müşahidə sistemlərinin yenilənməsi.

**LOT 4:** Fövqəladə hallar zamanı mülki müdafiə tələblərinə cavab verən universal müdafiə və fərdi mühafizə vasitələrinin alınması.

Tender proseduru 17 iyul 2019-cu il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanından arayış (xarici iddiaçılar tərəfindən məlumat);*
- *iki nüsxədə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 30 avqust 2019-cu il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən formada);*
- *Bakı şəhərində servis xidmətinin mövcudluğunu təsdiq edən məlumat (1-ci, 2-ci və 3-cü LOT-lar üzrə iştirak edən iddiaçılar üçün);*
- *iddiaçının müvafiq sahə üzrə ən azı iki illik iş təcrübəsini əks etdirən məlumatlar (korporativ müştərilərin adı, ünvanı, əlaqə telefonu);*
- *əsas şərtlər toplusunda nəzərdə tutulmuş digər məlumatlar və sənədlər.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 16 iyul 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 05 iyul 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasında əlaqələndirici şəxsə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçılar tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikasının Mərkəzi Bankının aşağıdakı hesabına iştirak etdiyi hər bir LOT üzrə 100 (bir yüz) manat məbləğində vəsait köçürməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Hesab №: AZ25NABZ01701190000000001944**
**M/h AZ74NABZ01451700000000001944**
**Kod: 501004**
**VÖEN: 9900071001**

Xarici iddiaçılar iştirak haqqını ödəniş gününə Azərbaycan Respublikasının Mərkəzi Bankının rəsmi məzənnəsi ilə ABŞ dollarında aşağıda göstərilmiş hesaba ödəyə bilərlər: Correspondent Bank: FRNYUS33, Federal Reserve Bank of New York, corr. account number: 021088221 AZER, account № AZ25NABZ01701190000000001944.

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təchizatı və işlərin görülməsi müddəti:

**1-ci LOT** üzrə: satınalma müqaviləsi imzalandığı gündən ən geci 30 (otuz) iş günü ərzində.

**2-ci LOT** üzrə: satınalma müqaviləsi imzalandığı gündən ən geci 3 (üç) ay ərzində.

**3-cü LOT** üzrə: satınalma müqaviləsi imzalandığı gündən ən geci 6 (altı) ay ərzində.

**4-cü LOT** üzrə: satınalma müqaviləsi imzalandığı gündən ən geci 50 (əlli) iş günü ərzində.

Qiymətləndirmə meyarları: qiymət və texniki amillər.

Tenderdə iştirak etmək istəyən hər bir şəxs iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanda yerləşən inzibati binasından hər bir LOT üzrə Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilər. Tender üzrə əlaqələndirici şəxs: Elvin Şahverdiyev (Təhlükəsizlik departamentinin əməkdaşı). Telefon: 493-11-22 (308), faks: 493-55-41, elektron poçt ünvanı: elvin_shahverdiyev@cbar.az.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

### "Azərbaycan İnvestisiya Şirkəti" ASC avtomobillərin təmiri xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şirkətlər (012) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 31.05.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

### "Azərbaycan İnvestisiya Şirkəti" ASC "1C: Müəssisə versiya 7.7" proqram təminatının "Mühasibat uçotu" konfiqurasiyasının yenilənməsi xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şirkətlər (012) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 31.05.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

### "Azərbaycan İnvestisiya Şirkəti" ASC Neftçala Sənaye Məhəlləsində yerləşən çirkab su təmizləyici qurğusunun bioloji yolla təmizlənməsi üçün dərman vasitələrinin və dozaj pompalarının kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şirkətlər (012) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 31.05.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

### "Azərbaycan İnvestisiya Şirkəti" ASC Hacıqabul Sənaye Məhəlləsi üçün mühafizə xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şirkətlər (012) 488-80-10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 31.05.2019-cu il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Talassemiya Mərkəzi PHŞ tərəfindən 11.03.2019-cu ildə keçirilmiş təkliflər sorğusunda LOT 1 üzrə "Avromed Company" QSC; LOT 2 üzrə "Spektr Med" MMC, "Labservis Ltd" MMC, "Albatros Helt Keyr" MMC; LOT 3 üzrə "Avromed Company" QSC, "Şəfahət" MMC, "Facet" MMC; LOT 4 üzrə "Avromed Company" QSC qalib elan olunmuş və qalib təşkilatlarla müqavilələr imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetində 27.02.2019-cu il tarixdə elan edilmiş Taksofonların ehtiyat hissələrinin satın alınması üzrə açıq tender prosedurunun qalibi "C.E.S-2008" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "C.E.S-2008" MMC arasında 190 115,58 (bir yüz doxsan min yüz on beş manat 58 qəpik) manat dəyərində 23 may 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aşağıdakı LOT-lar üzrə açıq tender elan edir

**LOT 1:** Azərbaycan Respublikası Mərkəzi Bankının binalarında istismar müddəti başa çatmış qaz tipli avtomatik yanğınsöndürmə və yanğından ünvanlı xəbərvermə siqnalizasiya sistemlərinin yenilənməsi işlərinin satın alınması;

**LOT 2:** Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında təmir-bərpa işlərinin satın alınması.

Tender proseduru **17 iyul 2019-cu il saat 15:00-da** Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90) keçiriləcəkdir.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə (iştirak ediləcək satınalma predmeti dəqiq göstərilməklə);*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 30 avqust 2019-cu il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi üzrə vaxtı keçmiş öhdəliklərin olmaması barədə dövlət orqanından arayış;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 16 iyul 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 05 iyul 2019-cu il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İddiaçı tenderdə iştirak haqqı kimi Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına **hər bir iştirak etdiyi LOT üzrə** 100 (bir yüz) manat məbləğində vəsait köçürməlidir.

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**SWIFT BIK: NABZAZ2C**
**Mərkəzi Bankın Ödəniş sistemləri və hesablaşmalar departamenti.**

Satınalmaya başlanma vaxtı: satınalma müqaviləsi imzalandığı gündən.

Malların təchizatı və işlərin görülməsi müddəti: tenderin əsas şərtlər toplusuna uyğun olaraq.

Qiymətləndirmə meyarları: qiymət və texniki amillər (iş təcrübəsi, əməkdaşların peşəkarlığı və maddi-texniki baza).

Tenderdə iştirak etmək istəyən iddiaçı şirkətlər iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

Əlaqələndirici şəxslər: Elvin Şirdanov (Hüquq departamenti), telefon: 493-11-22 (dax. tel.: 428), Ceyhun Səməndov (İnzibati departament), telefon: 493-11-22 (dax. tel.: 599).

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti

**təsərrüfat malları və materialların kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.**

Maraqlanan təşkilatlar (012) 596 - 32 - 73 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 30 may 2019-cu il saat 17:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, Salatın Əsgərova, 85.**

***Tender komissiyası***

## BİLDİRİŞ

**"Azərmaş" Açıq Səhmdar Cəmiyyəti səhmdarların Bakı şəhəri, Yasamal rayonu, Yeni Yasamal, Xarici dairəvi yol 4 ünvanında yerləşən inzibati binasında 01 iyul 2019-cu il saat 10:00-da keçiriləcək "Azərmaş" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarını növbəti ümumi yığıncağa dəvət edir.**

Aşağıdakı məsələlər ümumi yığıncağın gündəliyinə daxil edilmişdir:
1. Cəmiyyətin illik hesabatının, balansının, mənfəət və zərər hesablarının təsdiq olunması;
2. Cəmiyyətin maliyyə vəziyyətinin müzakirə edilməsi.

***Rəhbərlik***

## Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası şəbəkə infrastrukturunun və server otağının yenilənməsi işinin satın alınmasına dair açıq tender elan edir

Dövlət satınalmalarını tənzimləyən normativ hüquqi sənədlərdə göstərilən hallar istisna olmaqla, istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi dövlət mənsubiyyətindən asılı olmayaraq Azərbaycan Respublikasında keçirilən dövlət satınalma prosedurlarında iddiaçı kimi iştirak edə bilərlər.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və reyestrdən çıxarış) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *tender təklifi iki nüsxə (əsli və surəti) Azərbaycan dilində (tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında - tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox qüvvədə olmalıdır);*
- *son bir ili əhatə edən maliyyə dövriyyəsini əks etdirən bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi və digər müvafiq orqanlardan arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq edilmiş maliyyə hesabatının surəti və Məcburi Dövlət Sosial Sığorta üzrə Hesabat (işçi sayı);*
- *digər sənədlər.*

Tender proseduru **17 iyul 2019-cu il saat 16:00-da** Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasında, 3-cü mərtəbə akt zalında (Bakı şəhəri, Bülbül prospekti, 27) keçiriləcəkdir.

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını **16 iyul 2019-cu il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci **08 iyul 2019-cu il saat 18:00-a** qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasına (Maliyyə və satınalmalar idarəsinə) təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

İştirak haqqı **500** (beş yüz) manat təşkil edir və tenderin nəticələrindən asılı olmayaraq geri qaytarılmır. Tenderdə iştirak haqqı Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının aşağıdakı hesabına köçürülməlidir:

**Bank: ASC "Xalq" Bankının "Sahil" filialı**
**Bank VÖEN: 2000296061**
**Müxbir hesab: AZ24NABZ01350100000000067944**
**Kod: 510675**
**SWIFT: HAJCAZ 22**
**İBAN: AZ92HAJCNCRAZN00900071310001**
**VÖEN: 1403372311**

Malgöndərənlər (podratçılar) ixtisas uyğunluğunun müəyyənləşdirilməsi sənədlərində və tenderin əsas şərtlər toplusunda şərh edilmiş ixtisas meyarlarına və prosedurlarına əsasən qiymətləndiriləcəkdir.

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib olunmuşdur.

Tenderdə iştirak etmək istəyən şirkətlər iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Bakı şəhəri, Bülbül prospekti, 27 ünvanında yerləşən inzibati binasından (Maliyyə və satınalmalar idarəsi) Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxs: Maliyyə və satınalmalar idarəsinin aparıcı mütəxəssisi Rüstəm Kərimov, **rustam.karimov@fimsa.az**, tel.:+99412 493-50-58, daxili: 285, faks: 498-12 14.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az

## Azərbaycan Milli Elmlər Akademiyası Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT 1- AMEA akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunun 90 illik yubileyinin keçirilməsi məqsədilə yubiley və konfrans tədbirlərinin keçirilməsi işlərinin satın alınması

**İştirak haqqı: 300 manat**

**Az 1025 , Bakı şəh., Xocalı pr. 30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Az 1025, Bakı şəh., Xocalı pr. 30 ünvanından ala bilərlər.

Əlaqələndirici şəxs: Paşayeva Mehriban İsmayıl qızı

Əlaqə nömrəsi: 012-490-13-29

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 iyul 2019-cu il saat 16:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **11 iyul 2019-cu il saat 16:00-a** qədər Az 1025, Bakı şəh., Xocalı pr. 30 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **12 iyul 2019-cu il saat 16:00-da** Az 1025, Bakı şəh., Xocalı pr. 30 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC "B-3" stansiyası ərazisində yerləşən su anbarında nasosun yığılması və həmin su anbarından stansiyaya yanğın əleyhinə su xəttinin təchizatı işlərinin satın alınması üzrə açıq tender elan edir

Tender 1 (bir) LOT üzrə keçirilir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. "B-3" stansiyası ərazisində yerləşən su anbarında nasosun yığılması və həmin su anbarından stansiyaya yanğın əleyhinə su xəttinin təchizatı işlərinin satın alınması**

**İştirak haqqı - 200 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN): AZ98AZRT38050019440010268002**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **04 iyul 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **12 iyul 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına, "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **15 iyul 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi DOST Agentliyinin "DOST İş Mərkəzi" MMC-nin qapıüstü şüşə lövhələrin kotirovka sorğusu üsulu ilə satın alınması üzrə 27 may 2019-cu il tarixli yekun protokoluna əsasən "Lotus CO" MMC qalib elan edilmiş və 27 may 2019-cu il tarixdə müqavilə imzalanmışdır.

**Ünvan: AZ1005, Bakı şəhəri, Səbail rayonu, H.Z.Tağıyev küç., ev 13.**

**Əlaqələndirici şəxs: Firudin Məsməliyev. Telefon: (+99412) 497-41-66.**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının İcra katibliyi **ZİYA QULİYEVİN (ZİYA PAŞA)** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov maliyyə naziri Samir Şərifova əzizi **ELÇİN ŞƏRİFOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Ağalar Vəliyev və cəmiyyətin kollektivi iş yoldaşları Həmid Hüseynova bacısı **SOLMAZ BAĞIROVANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, "Azəraqrartikinti" Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının sədri Ağalar Vəliyev və cəmiyyətin kollektivi iş yoldaşları Nazim Şükürova qardaşı **KAZIM ŞÜKÜROVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Müdafiə Sənayesi Nazirliyinin rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əzizi **ELÇİN ŞƏRİFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Ədliyyə Akademiyasının baş müəllimi, Fəxri ədliyyə işçisi **AĞAMMƏD HÜSEYN OĞLU İBİŞOVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev maliyyə naziri Samir Şərifova əzizi **ELÇİN ŞƏRİFOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əzizi **ELÇİN ŞƏRİFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi Məftunə İsmayılovaya əzizi **NÜŞABƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi **SEVİNC MƏMMƏDOVANIN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əzizi **ELÇİN ŞƏRİFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıtdan Zakir Fərəcov maliyyə naziri Samir Şərifova əzizi **ELÇİN ŞƏRİFOVUN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əzizi **ELÇİN ŞƏRİFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin rektorluğu Fiziki elektronika kafedrasının sabiq dosenti **KAMİL MƏMMƏD OĞLU DAŞDƏMİROVUN** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi maliyyə naziri Samir Şərifova əzizi **ELÇİN ŞƏRİFOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9055
Sifariş 1776
Qiyməti 40 qəpik